# İrəvanda əsir əsgərlərimizə cinayət işi açıldı


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№14 (3257) 18 Aprel / 2023-cü il | Həftədə 1 dəfə çıxır | Qiymət: 60 qəpik


**ANA XƏBƏR**




## Molla rejiminə xidmət edən daha 3 nəfər həbs edildi

# Mikayıl İsmayılovun "topdağıtmaz" sərvəti

SOCAR-ın keçmiş vitse-prezidenti 2 rayonun ərazisini ələ keçirib...




8-9

**GÜNÜN NƏBZİ**

**Aktual**

## "Anklav kəndlərimiz hərbi yola azad olunmalıdır"



İlham İsmayıl: "Bu tamaşanı sonadək seyr edə bilmərik..."

4

**Xəbər**

## "Hərbi təxribatların arxasında Rusiya dayanır"

ADP hesab edir ki, Rusiyanın məqsədi KTMT hərbi qüvvələrini Azərbaycan-Ermənistan sərhədinə gətirməkdir...

2

**Ölkə**

## Tikinti şirkətinə "krışalıq" etmək adı ilə 26 mənzili ələ keçirdilər...

Vasif Talıbov və Bəylər Eyyubovun qohumları haqda şok ittihamlar

6

**Hüquq**

## Azyaşlı qızlarını atıb getdi, 5 il sonra isə...

Şamaxı sakini keçmiş gəlininin "yüngül həyat tərzi" keçirdiyini iddia edərək, nəvələrinin ondan alınmasını tələb edir

7

**Cəmiyyət**

## Baş prokurorun "yeznəsi" vətəndaşların pulunu mənimsəyib

"Arif də dedi ki, mən Süleyman İsmayılovun adamıyam, səni itirərik"

10

**Ölkə**

## Aqronom ingilis dili dərsi keçir, xadimə sinif rəhbəri olub



Gəncə şəhəri, İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbin müəllimi şok faktları açıqladı

12

**Sosial**

## Sabiq deputatın qardaşı vətəndaşın evini zəbt edib



Binəqədi sakini Aysel Əliyeva: "Vüqar Qasımova məxsus olan "Vialon" MMC tikinti şirkəti bizim haqqımızı qəsb etməkdədir"

14

**Toplum**

## Vətəndaşın torpaq sahəsi Əmlak Məsələləri Dövlət Komitəsinin saxtakarlığı nəticəsində zəbt edilib

Bəhram Yolçuyev: "Tanımadığım şəxslər mülkiyyətimdəki əkinə yararlı təsərrüfat təyinatlı torpaq sahəsini zəbt edərək fərdi yaşayış evi inşa ediblər"

Bugünlərdə "Hürriyyət"in redaksiyasına müraciət edən Bakı şəhəri, Xətai rayonu, məhəllə 1197, Həsən Salmani, ev 1b, mənzil 75 ünvanında qeydiyyatda olan Bəhram Əlövsət oğlu Yolçuyev 2013-cü ildə mülkiyyətində olan əkinə yararlı təsərrüfat təyinatlı torpaq sahəsinin qanunsuz olaraq zəbt edildiyini, tanımadığı şəxslər tərəfindən mənimsənilərək fərdi yaşayış evinin inşa edildiyini bildirib.

11

**Şikayət**

## Nazim İbrahimov və qardaşlarına məxsus şirkət vətəndaşın külli miqdarda pulunu mənimsəyib

Nağı Məmmədov: ""Global SF" MMC İbrahimovlar ailəsinin şirkətidir və bizi bu ailənin üzvləri mənzil satmaq adı ilə aldadıb əlimizdə olan-qalan pulumuzu alıblar"

Bir neçə gün öncə "Hürriyyət"in redaksiyasına müraciət edən Abşeron rayonu, Xırdalan şəhəri, Mehdi Hüseynzadə küçəsi 1A, mənzil 23 ünvanında yaşayan Nağı Bayram oğlu Məmmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun qardaşı, ATV-nin keçmiş rəhbəri Tağı İbrahimova məxsus olan "Global SF" MMC tərəfindən dələduzluğa məruz qaldığını, daha dəqiq desək, adıçəkilən şirkətin mənzil satmaq adı ilə onun 129 min manatını mənimsədiyini bildirib.

3

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№14 (3257) 18 Aprel / 2023-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# 360 kilo arıqlayan qadın...





**Meksikalı Mayra Rosalesin həyatı hər kəs üçün örnək ola bilər. Bu qadının çəkisi bir zamanlar 450 kiloqram olub.**

Xarici mətbuat xəbər verir ki, 360 kiloqram arıqlayıb 90 kiloya çatan 42 yaşlı Mayra nəhayət, normal həyata dönə bilib.

Bu qərara 14 il öncə, 2 yaşlı bacısı oğlunun qətlində ittiham edildikdən sonra gəlib.

2008-ci ildə Texas sakini Mayra Rosalesin 2 yaşlı bacısı oğlunun üstünə yıxılaraq onu öldürdüyü bildirilmişdi. Onu həbs etmək üçün gələn polislər qadın qapıdan keçə bilmədiyinə görə, yaşadığı evin divarlarını sökmüş, məhkəmə zalı isə ona uyğun qurulmuşdu. Məhkəmənin davam etdiyi günlərdə Mayra onun üçün hazırlanmış xüsusi çarpayıda elə məhkəmə binasında iclas zalında qalırdı. Çünki onu harasa aparıbgətirmək böyük əziyyət idi.

İddialara görə, Mayra uşağı bilməyərək əzib öldürmüşdü. Lakin vəkillər ona inanmırdılar. Mayra günasız görünürdü. Sonra məlum olub ki, uşağı öz anası döyərək öldürüb, Mayra isə onun təqsirini öz boynuna alaraq ölümə məhkum olunmaq istəyib. "Onsuz da yaşamağımın mənası yox idi. Bacımı xilas etmək istəyirdim", - o sonralar bildirmişdi.

Qəzetlər həmin dövrlər Mayra haqqında yazanda "Yarım tonluq qatil" təxəllüsünü işlədirdilər.

Mayranın günahsz olduğu aşkarlandıqdan sonra qadında yaşamaq həvəsi yaranın. Bacısına 15 il həbs cəzası verilib. O isə həkimlərin köməyi ilə artıq çəkiləri ilə mübarizəyə başlayıb.

Hyuston şəhərində mütəxəssislərin yardımı ilə ilk həftədə 45 kilo verən Mayra sonra əməliyyatsız 250 kilodan azad olub. Daha sonra mədəkiçiltmə və sonda dəri sallanmalırını aradan qaldırmaq üçün plastik əməliyyat keçirib. Bu gün Mayra 90 kilo çəkidədir və hamı kimi normal həyat yaşayır.

Onun həyat hekayəsi o qədər qeyri-adidir ki, haqqında "Yarm tonluq qatil" adlı sənədli film çəkilib.

## Əyləncə səhifəsi

# Mask ABŞ rəsmilərinin sirlərini açır...

"ABŞ-da hökumət işçiləri "Tvitter"dəki bütün özəl mesajları oxuya bilərmiş"



**İlon Mask ABŞ hakimiyyətinin "Tvitter" istifadəçilərinin bütün özəl mesajlarına baxmaq ixtiyarına malik olduğunu bəyan edib.**

Hurriyyet.az "Anadolu Agentliyi"nə istinadla xəbər verir ki, o, bu sözləri "Foks Nyus" telakanalının aparıcısı jurnalist Taker Karlsona müsahibəsində söyləyib.

Karlson dünyaca məşhur biznesmenlə müsahibədən bir parçanı özünün "Tvitter" səhifəsində dərc edib. Mask deyib: "Hakimiyyət faktiki olaraq, "Tvitter"də baş verən hər şeydən xəbərdar olmaq imkanına malik olub. Həttа şəxsi mesajları da oxuya biliblər. Bundan xəbər tutanda şoka düşdüm".

Mask süni zəka ilə bağlı narahatlığını da bildirərək, texnologiyanın mədəniyyəti yox etmək potensialına sahib olduğuna inandığını deyib.

# Britaniyanın Baş nazirinə qarşı araşdırma başlayıb

**Böyük Britaniya parlamenti ölkənin Baş naziri Rişi Sunaka qarşı təhqiqatın başlandığını bəyan edib. Bu barədə məlumat parlamentin saytına yerləşdirilib.**

Hurriyyet.az "İnosmi.ru" portalına istinadla xəbər verir ki, araşdırmanın "maliyyə maraqlarının deklarasiyası" məsələsi ilə bağlı olduğu bildirilir. Detallar və təfərrüatlar açıqlanmır. Sunakın ofisindən bildiriblər ki, parlamenti araşdırmasının hədəfi Nazirlər Kabinetinin başçısının həyat yoldaşının biznesidir.





# Lavrov xarici səfərə cins şalvarda getdi...

Rusiya XİN rəhbərinin Braziliya səfəri müzakirəyə səbəb oldu

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov Braziliyaya rəsmi səfər edib. Rusiyalı nazirin səfərə rəsmi geyimdə getməməsi diqqət çəkib.**

Hurriyyet.Az xəbər verir ki, Rusiya XİN-in Tvitter hesabında paylaşdığı fotolardan görünür ki, Lavrov səfərə cins şalvar və idman ayaqqabısı ilə yollanıb.

Lavrovun bütün tədbirlərə rəsmi geyimdə qatılması fonunda onun bu səfərə qeyri-rəsmi formada yollanması sosial şəbəkə istifadəçiləri tərəfindən geniş müzakirə olunub.

Qeyd edək ki, Sergey Lavrov 2016-cı ildə Monqolustana səfəri zamanı da qeyri-rəsmi geyimə üstünlük vermişdi. Nazir bu zaman da öz seçiminə görə müzakirələrə səbəb olmuşdu.

# İnsanların yalan danışdığını bilməyin yolu



**Hollandiyalı elm adamları bir insanın mütləq yalançı olduğunu təxmin etməyə imkan verən üsul tapıblar. Lent.az xarici mətbuata istinadən xəbər verir ki, tədqiqatçılar 1,5 min insanın iştirak etdiyi eksperiment keçiriblər.**

Onlara verilən tapşırıq tələbələrin günlərini necə keçirdikləri ilə bağlı bir neçə yazılı və videoları araşdırmaq idi. Sonra kimin yalan danışdığını və kimin olmadığını təxmin etməli idilər. Bəzi iştirakçılar öz intuisiyalarından "yalan detektoru" kimi istifadə ediblər. Məlum olub ki, bu üsul işləmir. Çünki düzgün cavabların sayı az idi. Ancaq tələbələrin hekayələrində təfərrüatların miqdarına yerin, hərəkətin, əşyaların, hadisələrin və onların zaman çərçivələrinin təsviri kimi xırdalıqlara diqqət yetirənlər əla nəticələr əldə edib. Bu özəlliklərə diqqət edən iştirakçılar həqiqəti yalandan 80 faizə qədər dəqiqliklə ayıra biliblər. Hollandiyalı psixoloqun sözlərinə görə, yalan danışanlar öz hazırladıqları hekayələrə çoxlu təfərrüatlar əlavə edir və onu şişirtməyi sevirlər. Buna görə də dəqiq, qısa və konkret danışan insanların daha etibarlı olduğu iddia edilir. Əksinə, çox və hər şeyi incəliyinə qədər sadalayanların yalan danışma ehtimalı daha yüksəkdir.

# Adamyeyən ulduz aktyora cinayət işi açıldı



**Hollivud ulduzu Armi Hammer seksual təcavüz iddialarından sonra nəzarət altına alınıb. Lent.az-ın məlumatına görə, Los-Anceles prokurorluğunda aktyora qarşı seksual zorakılıq maddəsilə cinayət işi başlayıb. Aktyora qarşı kimin dava açdığı hələlik sirr kimi saxlanılır.**

Armi Hammerə qarşı seksual zorakılıq iddiası ilk dəfə 2017-ci ildə qaldırılıb.

2021-ci ildə aktyorun müxtəlif qadınlarla yazışmaları sosial şəbəkələrdə yayımlanıb. O yazışmalarda özünü qaniçən, adamyeyən adlandıraraq partnyorlarını yemək arzusundan bəhs edib. Keçmiş sevgilisi model Peyc Lorense bilirib ki, aktyor dəfələrlə onu yaralayıb və sonra qanını yalayıb. Və hətta xahiş edirmiş ki, model qabırğalarını çıxartdırsın. Aktyor onun qabırğalarını yemək arzusunda olubmuş.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Firuz Haşımov - 85

## Qocaman yazarı doğum günü münasibətilə təbrik edirik!



**Azərbaycan Milli Azadlıq Hərəkatının öncüllərindən olan Firuz Haşımovun 85 yaşı tamam olur. F.Haşımovun ölkəmizin müstəqillik qazanmasında əvəzsiz xidmətləri olub və bu yolda böyük əzmkarlıq göstərib.**

Firuz Haşımovu əksər azadlıq mücahidlərindən fərqləndirən cəhət odur ki, o, müstəqillik illərində də rus irticasına qarşı mübarizə aparmaqdadır. Sadəcə, bu dəfə şər imperiyasına, onların ölkəmizdəki əlaltılarına, Rusiyaya bağlı "5-ci kolon"a qarşı qarşı küçə və meydanlarda deyil, mətbuatda savaş aparır. Həm də təkcə siyasi müstəvidə deyil, bütün sahələrdə qılınc çalmaqdadır. Məhz bu məziyyətləri Firuz Haşımovu ölkədə sevdirməklə yanaşı, ona böyük oxucu kütləsi qazandırıb. Əminliklə deyə bilərik ki, bu gün təkcə "Hürriyyət"in oxucuları sırasında F.Haşımovun yazısını səbrsizliklə gözləyən yüzlərlə vətəndaşımız var.

Onu da qeyd etməliyik ki, qocaman yazar yalnız Rusiya İmperiyası, onun tör-töküntüləri ilə deyil, Azərbaycan hakimiyyətindəki korrupsioner, rüşvətxor məmurlarla da mübarizədədir. O düşünür ki, məhz bu məmurların talançılığı səbəbindən xalqımız hələ də müstəqilliyin barını dərə bilmir.

Firuz Haşımovun İkinci Qarabağ Müharibəsinədək dövri mətbuatda dərc olunan yazılarında torpaqlarımızın erməni tapdağı altında qalması, əsir qız-gəlinlərimizin, haqsız yerə qanı tökülən, qətlə yetirilən azərbaycanlıların qisas gününün gecikməsi də ürək ağrısı ilə hər zaman özünə yer tapırdı. Qocaman yazar xalqımızı qisasa səsləyir, erməni-rus birliyinə savaş meydanında "dərs verməyin" vaxtı gəldiyini dilə gətirirdi. Odur ki, 44 günlük savaş nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi, hər bir vətənpərvər Azərbaycan vətəndaşı kimi, F.Haşımovun da ürəyinə su çilədi. İndi onun yeganə arzusu dövlətimizin gerçək müstəqilliyə qovuşması və xalqımızın azad, firavan yaşamasıdır.

Əlbəttə, F.Haşımovun dövlətdən bəzi inciklikləri də yox deyil. Məsələn, Rusiyaya bağlı qüvvələrin sifarişi ilə məhkəmələrə çəkilməsi, haqsız yerə cərimə edilməsi və təqaüdünün bir hissəsinin tutulması onu hələ də çox incidir. Haqsız da deyil. Axı o, sadəcə, hər kəsin bildiyi həqiqətləri dilə gətirmiş, talançılara qarşı barışmaz mövqe sərgiləmşdi və bunun üçün ona mükafat verilməliydi, nəinki cərimə etmək. Məhz bu səbədən, "həyatımızı istiqlaliyyət uğrunda qurban verdik, hər şeyimizi itirdik, indi dərmana pul tapa bilmirik", - deyən qocaman yazarın acısını anlamamaq mümkün deyil. Amma ona bu ağrı-acıları unutduran insanlar da var ki, Firuz Haşımov məhz onların sayəsində hələ də ayaqdadır və mübarizəsini davam etdirir. "Məni bu həyata nəvələrim bağlayır. Amma bütün arzularım ürəyimdə qaldıg Bir arzum var idi, ona çatmışam, Üzeyir bəyin yurdu azadlıqdadır...

Amma mən xoşbəxtəm ki, Azərbaycan mətbuatında Azərbaycan xalqının memarlıq abidələrinin qorunması üçün məqalələri yazmışam. Xoşbəxtəm ki, ilk dəfə olaraq Azərbaycanın hərb sənəti tarixi, miniatür sənəti haqda məqalələri mən yazmışam. İlk dəfə olaraq Azərbaycan mətbuatında klassik Azərbaycan musiqisini elə tədqiq etmişəm ki, onun üzərində heç kim işləməyib. Azərbaycan milli xoreoqrafiyası haqqında məqalələri mən yazmışam", - deyə qocaman yazar vurğulayər.

Və nə yaxşı ki, Firuz Haşımov hələ də yazıb-yaratmaq eşqi ilə doludur. Həyatını başdan-başa mübarizələrə həsr edən qocaman qələm ustasını 85 illik yubileyi münasibətilə təbrik edir, ona daha uzun illər yazıb-yaratmağı arzu edirik!

**"Hürriyyət"**

## Allah Rəhmət eləsin!

**Sərdar Cəlaloğlu və ADP İdarə Heyətinin üzvləri partiyanın Nəzarət Təftiş Komissiyasının sədri Bəhruz Məmmədova əmisinin vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

**Allah Rəhmət eləsin!**

# "Hərbi təxribatların arxasında Rusiya dayanır"

## ADP hesab edir ki, Rusiyanın məqsədi KTMT hərbi qüvvələrini Azərbaycan-Ermənistan sərhədinə gətirməkdir...

**Dünən ADP İdarə Heyətinin ötən həftə ərzində baş verən bir sıra ictimai-siyasi hadisələrin müzakirəsinə həsr olunan növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantıda ilk öncə ötən həftə Azərbaycan-Ermənistan sərhədində baş vermiş hərbi təxribat ətrafında fikir mübadiləsi aparılıb.**



Baş vermiş hərbi təxribat zamanı Azərbaycan tərəfindən şəhid olan hərbiçilərimizə Allahdan rəhmət dilənib, onların yaxınlarına və əzizlərinə başsağlığı verilib. Müzakirə iştirakçıları baş vermiş hərbi təxribatın arxasında Rusiyanın dayandığını qeyd ediblər. Müzakirələrdə bu təxribatın törədilməsində Rusiyanın məqsədinin KTMT hərbi qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinə gətirmək və gələn ay Azərbaycan və Eмənistan dövlət rəsmilərinin Vaşinqtonda planlaşdırılan görüşünün qarşısını almaq olduğu vurğulanıb, eyni zamanda Rusiyanın maraqlarına uyğun hərbi əməliyyatların keçirilməsinin və Azərbaycandan Ermənistana qarşı təzyiq vasitəsi kimi istifadə edilməsinin yolverilməz olduğu bildirilib.

İdarə Heyəti atəşkəs rejiminin pozulmasının əleyhinə olduğunu, Azərbaycan-Ermənistan arasında mövcud olan problemlərin sülh danışıqları yolu ilə və Azərbaycan tərəfinin Ermənistana təqdim etdiyi beynəlxalq hüquq normalarına uyğun təkliflər çərçivəsində həll olunmasının vacibliyini bildirib.

ADP hesab edib ki, vasitəçi tərəflərin beynəlxalq hüquqdan yan keçərək Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqlarına təkliflər verməsi bu münaqişənin bu günə kimi davam etməsinin əsas səbəbidir.

İdarə Heyəti Azərbaycan-Ermənistan arasındakı münasibətlərin yoluna qoyulmasında hər hansı bir vasitəçiyə ehtiyac olmadığını, problemin birbaşa ikitərəfli danışıqlar əsasında müsbət həll olunmasına ümid etdiyini bildirib.

İdarə Heyəti ötən həftə İrəvanda ağır atletika üzrə Avropa çempionatının açılışı zamanı Azərbaycan dövlət bayrağının Ermənistan vətəndaşı tərəfindən yandırılmasına da münasibət bildirib. İdarə Heyəti idman tədbirlərinin siyasiləşdirilməsinin əleyhinə olduğunu, baş verən hadisəni beynəlxalq tədbirlərin ruhuna zidd olduğunu, ermənilərin gücsüzlüyünün və mənəvi deqradasiyaya uğradığının təzahürü kimi dəyərləndirib.

İdarə Heyəti Ermənistan tərəfinə əsir düşən Azərbaycan əsgərlərin fiziki zorakılığa, işgəncələrə və qeyri-insani rəftara məruz qalması ilə bağlı erməni teleqram kanallarının yaydığı foto və video materiallardan dərin narahatçılıq keçirdiyini bildirib. İdarə Heyəti hesab edib ki, həmin əsirlərin azad olunması ilə bağlı Azərbaycan hökuməti səylərini davam etdirməli, beynəlxalq ictimaiyyətin diqqətini isə Ermənistanın "Hərbi əsirlərlə rəftar haqqında Cenevrə Konvensiyası"nın tələblərini kobud şəkildə pozduğuna yönəltməlidir. İdarə Heyəti bundan əvvəl də orduda baş verən qanunsuz hallardan dolayı əsgərlərimizin Ermənistan tərəfə keçməsi və ya naməlum şəraitdə yoxa çıxması hallarını nəzərə alaraq Müdafiə Nazirliyini orduda əsgərlərə qarşı münasibət və nizam-intizamla bağlı problemləri aradan qaldırmağa çağırıb.

ADP cari ilin may ayının 14-də qardaş Türkiyədə keçiriləcək prezident və parlament seçkiləri ətrafında da fikir mübadiləsi aparıb. Müzakirələrdə bu seçkilərin regionda və dünyada gedən proseslərə çox ciddi təsiri olacağı vurğulanıb. Eyni zamanda ayrı-ayrı dövlətlərin və təşkilatların Türkiyədəki seçkilərə müdaxilə cəhdləri qətiyyətlə pislənilib, bu Türkiyənin daxili işlərinə kobud müdaxilə cəhdi kimi dəyərləndirilib.

İdarə Heyəti Rusiya-Ukrayna müharibəsinin son durumunu da müzakirə edib. Müzakirələrdə bu dağıdıcı müharibənin hər iki tərəfin strateji maraqlarının təmin edilməsi ilə daha tez bitməsinin vacibliyi qeyd olunub.

**Hazırladı: KƏNAN**

# Molla rejiminə xidmət edən daha 3 nəfər həbs edildi

**Azərbaycanda molla rejiminə xidmət edən şəxslərin müəyyən edilməsi və casus şəbəkələrinin ifşası istiqamətində əməliyyat tədbirləri davam etdirilir.**




Hurriyyet.az xəbər verir ki, teleqram kanallarında yayılan məlumata görə əməliyyat nəticəsində daha 3 casus saxlanılıb.

Məlumatda qeyd olunur ki, bu əməliyyatların davamı olaraq həyata keçirilən əməliyyat tədbirləri nəticəsində Bakının Qaradağ rayon sakini Vüqar Süleymanov, Natiq Əliyev və Kəlbəlayi Sərvər saxlanılıblar.



# Nazim İbrahimov və qardaşlarına məxsus şirkət vətəndaşın külli miqdarda pulunu mənimsəyib

## Nağı Məmmədov: ""Global SF" MMC İbrahimovlar ailəsinin şirkətidir və bizi bu ailənin üzvləri mənzil satmaq adı ilə aldadıb əlimizdə olan-qalan pulumuzu alıblar"

Bir neçə gün öncə "Hürriyyət"in redaksiyasına müraciət edən Abşeron rayonu, Xırdalan şəhəri, Mehdi Hüseynzadə küçəsi 1A, mənzil 23 ünvanında yaşayan Nağı Bayram oğlu Məmmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun qardaşı, ATV-nin keçmiş rəhbəri Tağı İbrahimova məxsus olan "Global SF" MMC tərəfindən dələduzluğa məruz qaldığını, daha dəqiq desək, adıçəkilən şirkətin mənzil satmaq adı ilə onun 129 min manatını mənimsədiyini bildirib.

**Belə ki, uzun illər Rusiya Federasiyasında yaşadığını, Azərbaycana gəldikdə isə burada adıçəkilən şirkətin başına olmazın oyunlar açdığını deyən Nağı Məmmədovun sözlərinə görə, Bakı Apellyasiya Məhkəməsinin 2(103)-486/2020 saylı 14.02.2020-ci il tarixli icra sənədinə əsasən borclu "Global SF" MMC-dən ümumilikdə 129290 manat məbləğində pul vəsaiti tutularaq ona və həyat yoldaşı Zeynəb Eynulla qızı Məmmədovaya ödənilməlidir:** "Mən və həyat yoldaşım iddia ərizəsi ilə məhkəməyə müraciət edərək bildirmişik ki, "Global SF" MMC-nin bizə 129290 manat manat borcu var. Bakı Apellyasiya Məhkəməsi isə öz növbəsində, xeyrimizə qərar çıxarıb. **Həmin qərarda deyilir ki, borclu "Global SF" MMC-dən ümumilikdə 129290 manat məbləğində pul vəsaiti tutularaq mənə və həyat yoldaşıma ödənilməlidir. Həmin icra sənədi icra olunması üçün icraya yönəldilib, lakin Yasamal Rayon İcra Şöbəsi bu günə qədər sənədi icra etməkdən boyun qaçırır.** Onu da qeyd edim ki, həmin icra işi üzrə mənim və həyat yoldaşımın əvvəlki nümayəndəsi Hidayət Hüseyn oğlu Hüseynli olub. Biz "Global SF" MMC-nin icra sənədini qəsdən icra etməməsi ilə bağlı dəfələrlə müxtəlif instansiyalara şikayətlər etmiş, tələbin onun əmlakına yönəldilməsi barədə icra tədbirlərinin görülməsini tələb etmişik. Ancaq "Global SF" MMC-dən həmin borc məbləğinin alınması mümkün olmayıb. **Bununla belə 2021-ci ilin təxminən, may-iyun aylarında "Global SF" MMC adımızdan və imzamız görüntüsü ilə üzərində 29.04.2021--ci il tarixi qeyd olunan və Bakı şəhəri Yasamal Rayon İcra Şöbəsinin icra məmuru I dərəcəli ədliyyə qulluqçusu Bəhruz Bayramova ünvanlanan ərizə təqdim edərək iddia edib ki, guya bizə olan borcunu tam şəkildə ödəyib. Və bununla da tələb edir ki, icra üzrə icraata xitam verilsin. Biz isə öz növbəmizdə, həmin ərizədən məlumatsız olduğumuzu, "Global SF" MMC-dən heç bir pul vəsaiti almadığımızı, borclu təşkilatın və onun rəhbərliyinin, eləcə də borclu tərəfdən hər hansı digər şəxsin bizə pul vermədiyini israrla bildirdik. Eyni zamanda, həmin ərizənin saxtalaşdırıldığını qeyd edib bununla bağlı Yasamal Rayon Prokurorluğuna şikayət etdik.** Qeyd etdiyim kimi, bizim bu icra işində faktiki hüquqi xidmət göstərən nümayəndəmiz Hidayət Hüseyn oğlu Hüseynli olub. Odur ki, mən ondan belə bir sənədin necə ortaya çıxdığını soruşmuş, pulu almadığımız halda belə bir sənədin nə məqsədlə tərtib edildiyini izah etməsini tələb etmişəm. Çünki mən uzun müddət Rusiyada yaşamışam və latın əlifbası ilə yazıb-oxumağı bacarmıram. Adımdan bütün şikayət və digər sənədləri Hidayət Hüseyn oğlu Hüseynli tərtib edib, mənsə ona inanıb həmin sənədləri oxumadan imzalamışam. Bir məqamı da nəzərinizə çatdırım ki, "Global SF" MMC-nin rəhbəri ilə eyni kənddən olan Hidayət Hüseyn oğlu Hüseynli ilə görüşdükdə o, sözügedən sənədi tərtib etmədiyini, bundan xəbəri olmadığını bildirmiş, daha sonra isə mübahisə zəminində özündə olan bu işə aid bəzi sənədləri gözümün qarşısında məhv edərək, onun məzmununu məndən gizlədib. **Onun bu hərəkəti məndə bu sənədin Hidayət Hüseyn oğlu Hüseynli tərəfindən bilərəkdən bu cür məzmunda tərtib edilməsinə, onun məni məhz "Global SF" MMC-nin sifarişi ilə aldadaraq belə bir sənədi imza etdirməsinə əsaslı şübhələr yaradıb".**

## "Bu şirkət hər cür qərəzli davranışa, saxtakarlığa və böhtana əl ataraq pulumuzu, bizdən mənimsənilən 129 min manatını ödəməkdən yayınır"

"Global SF" MMC və Yasamal Rayon İcra Şöbəsi ilə mübarizə apararaq haqlı olduğunu məhkəmə qaydasında təsdiq etdiyini vurğulayan Nağı Məmmədov beləcə işin təkrar başlanmasına nail olub: "Lakin "Global SF" MMC-nin və Yasamal Rayon İcra Şöbəsi ilə əlbirliyinin yaratdığı çətinliklər hələ irəlidə imiş, mən isə bunu bilmirmişəm. Belə ki, iş təkrar icra şöbəsinə qayıtdıqdan sonra əsl süründürməçiliklə rastlaşdım. **Yasamal Rayon İcra Şöbəsi məhkəmə sənədini icra etmir. "Global SF" MMC-nin rəhbərini, əsl sahiblərini şöbəyə dəvət etmir, onlardan məhkəmə qərarını icra etməyi tələb etmir, adıçəkilən şirkətin əmlaklarına həbs qoyulmur, borclu məhkəmə qərarını icra etməyə məcbur edilmir. Görəsən, Yasamal Rayon İcra Şöbəsi niyə belə üzgörənlik edir? Nə üçün "Global SF" MMC-nin nazı ilə oynayır? Və hansı məqsədlə bizi illərdir ki, süründürür? Cavabı çox sadədir! Bildirim ki, "Global SF" MMC ölkədə məşhur bir ailənin - İbrahimovlar ailəsinin şirkətidir. Belə ki, Hacı İbrahim, Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov, Tağı İbrahimov, Sahib İbrahimov - bu adlar hamıya tanışdır. Bax, bizi bu ailənin üzvləri aldadıb əlimizdə olan-qalan pulumuzu alıblar.** Məhkəmədə min-bir əzab-əziyyətlə, onların yalan və böhtanına qarşı səbrlə mübarizə aparıb haqqımızı tanıtmışıq. Lakin bu ailə şirkəti illərdir ki, haqqımızı qaytarmır. "Global SF" MMC hər cür qərəzli davranışa, saxtakarlığa və böhtana əl ataraq pulumuzu, bizdən mənimsənilən 129 min manatını ödəməkdən yayınır".



**Beləliklə, Nağı Məmmədov "Hürriyyət" vasitəsilə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə, birinci vitse-prezident Mehriban Əliyevaya, Prezidentin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərova, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Əli Nağıyevə, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova, ədliyyə naziri Fikrət Məmmədova, Milli Məclisin sədri Sahibə Qafarovaya, ombudsman Səbinə Əliyevaya və Yasamal Rayon İcra və Probasiya şöbəsin rəisi Pərviz Zəkəriyəyevə müraciət edərək, onlardan məsələnin ciddi şəkildə araşdırılmasını, Dövlət adından çıxarılmış məhkəmə qərarlarının icrasının təmin edilməsi və ona qarşı dələduzluq edən şəxslər barəsində müvafiq tədbir görülməsi ilə əlaqədar göstəriş verilməsini xahiş edib.**

**"Hürriyyət"**



Eldəniz QULİYEV

# Allahım, yıxılmağa qanad ver mənə!..

**Bu nə məmləkətdi, bu nə hakimiyyətdi, İlahi?! Səhv anlamasaydılar, hətta bu nə millətdi belə, deyərdim!..**

Burada çaylar tərsinə, yeni arandan dağa tərəf axsa - heç kəs təəccüblənməz... Burada səlahiyyət sahibləri öz xalqını sevmək, yaşatmaq əvəzinə, onu əzib xıncım-xıncım eləsə - heç kim dillənməz!..

Burada adamlar avtobusda, metroda, ya küncdə-bucaqda ayağı tapdalandığı anda daha bərk çığırır, nəinki haqqı-hüququ tapdalananda!

Burada, elə bil Hamletin məşhur "ölümmü- olummu" dilemasına bənzər - DÜZ yaşamaq və ya YAXŞI yaşamaq arasında seçim məsuliyyəti daşıyan yoxdu... Əlbəttə, bu seçimlərin birincisi əzabəziyyət, məhrumiyyətlər, ikinci isə, - yaltaqlıq, şərəfsizlik və nadürüstlük tələb edir...

Və nə yazıq ki, ikincini istəyənlər, məhz ikinciyə can atanlar "itinə tök" qədərdi... Özü də belələri ömrü boyu bioloji varlıq kimi həlləmqəlləm olacaqlarından, daim yuxulu qafil təki yatıban, əsil həpənd yəyatı yaşayacaqlarından bixəbərdilər!..

Təəssüf və səd heyif ki, bu absurd yaşam tərzinə bir düzən, bir səliqə-sahman gətirməyə borclu olan hakimi-mütləqlər də öz işlərindədi - göy üzünə mismar vurmaqla məşğuldular!..

**P.S. Beləlləri ağıl istehsal etməyən atamor beyinləriylə anlamırlar ki, insanın öz bacarığı, ağlı, savadı və öz istedadı sayəsində qazanmadığı GÜC (oxu: vəzifə, səlahiyyət) əvvəlaxır iki sonluqla nəticələnir: ya komediya, ya da tragediya ilə.**

**Bəzənsə tragikomediya ilə!..**

# "Anklav kəndlərimiz hərbi yolla azad olunmalıdır"

## İlham İsmayıl: "Bu tamaşanı sonadək seyr edə bilmərik..."

**"10 noyabr 2020-ci ildən sonra Azərbaycan və Ermənistan arasında müharibənin bitmədiyini sübut edən kifayət qədər hərbi-siyasi hadisələr baş verib. Son hadisələr - əsir əsgərimizə verilən işgəncə və bayrağımızın beynəlxalq tədbirdə yandırılması göstərir ki, müharibə iki millət arasında da davam edir. Yolu azıb erməni tərəfə keçən əsgərimizə vurduqları təpiklə ermənilər reinteqrasiya dediyimiz birgəyaşayışı qəbul etmədiklərini, bunun qeyri-mümkünlüyünü bir daha göstərdilər. Bayrağımızı İrəvanda, rəsmi tədbirdə yandıran ermənilər vandallıqları ilə yanaşı, bizimlə heç zaman barışmayacaqlarını nümayiş etdirdilər".**



Bunları təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən yeni təxribatları şərh edərkən deyib. "Müharibəni yalnız hərbiçilər deyil, erməni cəmiyyətinin sıravi üzvləri də davam etdirir. Bu qənaətə gəlməyimizin səbəbi sərhəddə baş verən son hadisə deyil, belə təxribatlara adət etmişik. Naxçıvan istiqamətində yolu azıb düşmən tərəfə keçən əsgərimizə təpiyi erməni əsgəri yox, mülki erməni vurub və nümayiş etdirib. Bayrağımızı da sıravi dizayner yandırıb. Müharibə bitməyib, dayandırılıb", - təhlilçi əlavə edib.

Onun sözlərinə görə, müharibənin dayanmasından iki il yarım zaman keçib və vaxt uzandıqca himayədarına sığınan, işğaldan ruhlanan Qarabağ erməniləri heç vaxt Azərbaycanın tərkibində olmayacaqlarını, müstəqil olacaqlarını daha bərkdən söyləyirlər: "Ümumiyyətlə, bu gün real vəziyyət necədir? Azərbaycanın hərbi-siyasi üstünlükləri ortada olsa da, reallıqda Azərbaycan torpaqlarının 3,2 min kvadrat kilometr sahəsi hələ də Ermənistan ordusunun işğalı altındadır, üstəlik, 8 anklav kənd. Qarabağda öz qoşunları ilə dayanan Rusiya torpaqlarımızı azad etməyə imkan vermir. Deməli, bu ərazi həm də Rusiyanın işğalı altındadır. Bütün bəlanın mənbəyi də budur. Erməni məğlub olub, amma Azərbaycan torpaqlarının 3,2 min kvadrat kilometrini işğal altında saxlamaqla hələ də real qazancın əlində olduğunu bilir və onu əldən verməmək üçün 29 aydır ki, hər cür dona girir. Əlbəttə ki, bu donları onların əyninə himayədarları - Rusiya, İran, Fransa biçdiyindən, sülhdən, razılaşmadan qaça bilir".

İ.İsmayıl vurğulayır ki, müharibə yalnız iki dövlət arasında deyil, həm də vasitəçi adı ilə geosiyasi təsir imkanlarını reallaşdırmaq istəyən Qərb və Rusiya arasında davam edir. Onun sözlərinə görə, Ukrayna müharibəsindəki isti qarşıdurma öz yerində, Qarabağda da guya ki, vasitəçi olanlar arasında qarşıdurma gah işğal altında olan ərazilərimizdə, gah da iki dövlətin sərhədində təxribatlarla müşayiət olunur. "Verilən məlumatlara görə, ABŞ-da və Rusiyada Azərbaycan və Ermənistan liderlərinin görüşü gözlənilir. Nəticəsi olacaqmı? Müharibə bitəndən indiyədək belə görüşlər çox olub, hansısa razılaşmalara da nail olunub, amma heç biri reallaşmayıb, çünki vasitəçilər Cənubi Qafqazda bir-birini sıxışdırmaq üçün müxtəlif təxribatlara əl atdıqca heç bir razılaşma olmayacaq. Bu siyasətdə vasitəçilərin aləti, həmişə olduğu kimi Ermənistandır. Azərbaycanla sülh müqaviləsini bağlamamaq üçün bütün manevrlərdən istifadə edir, gələcəkdə hansı qütbün yanında olacağına qərar verə bilmədiyi üçün və ya qəsdən hər iki tərəfə vədlər verərək, onların maraqları ətrafında reveranslar edib əlverişli beynəlxalq şəraiti gözləyirlər", - ekspert qeyd edib.

İlham İsmayıl bildirir ki, iki il yarımdır Ermənistan və Rusiyanın zaman uzatmaq siyasətinin şahidiyik: "Yeni görüşlər, yenə delimitasiya, demarkasiya işləri, infrastrukturun açılması müzakirə olunacaq, vədlər veriləcək, Nikol Paşinyan Brüsseldən, Vaşinqtondan qayıdan kimi, orada dediklərini unudub tamam əks mövqedən çıxış edəcək, Soçiyə, ya da Moskvaya çağrılacaq, oradan da qayıdanda Azərbaycanla sülh müqaviləsi imzalamaq üçün əlavə şərtlərdən danışacaq. Yəni, Putin Valday çıxışında dediyi kimi, "Vaşinqton variantı ilə Qarabağdan imtina edirsinizsə, biz də buna razıyıq" deyib, Ermənistan rəhbərliyini şantaj etməkdə davam edəcək".

Təhlilçi hesab edir ki, biz Ermənistana hərbi və birbaşa himayədarı olan Rusiyaya diplomatik təzyiqlərimizi artırmalıyıq: "Ermənistana ilk hərbi təzyiqimiz 8 anklav kənd ətrafında baş verməlidir. Bu ərazilər Qarabağ deyil, burada 10 noyabr bəyanatı keçmir. Burada Ermənistanın işğalı altında olan ərazilərin qısa müddətdə azad edilməsi həll olunmalıdır. Ermənistanın 41 kvadrat kilometrlik Başkənd anklavı bizim nəzarətimizdədirsə, Ermənistanın nəzarətində 200 kvadrat kilometrdən çox 8 anklav kəndlərimiz var. Düşmən bilməlidir ki, tezliklə masa arxasında bu problem həll olmasa hərbi yola əl atmaq beynəlxalq hüququmuzdur".

Ekspert onu da qeyd edir ki, Rusiyaya təzyiqimizi Qərblə koordinasiyalı şəkildə aparmalıyıq. "Bu təzyiq ilk növbədə Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə başlanmalıdır. Buna Qərb də etiraz etmir, heç Ermənistan hakimiyyəti də. Bu işə yalnız Rusiya mane olur. Dinc aksiyanın götürülməsi müqabilində nəzarət məntəqəsinin qurulmasının yaxın tarixi elan olunmalıdır. İkinci təzyiq erməni silahlı qüvvələrin Qarabağdan çıxarılması ilə bağlı olmalıdır. Rusiya imzasına hörmət edirsə, bu silahlı qüvvələrin çıxarılmasının da vaxtını elan etmək lazımdır", - o bildirib.

İ.İsmayıl hesab edir ki, Rusiyaya diplomatik təzyiq Qarabağla, Ermənistana hərbi təzyiq anklav kəndlərlə başlanmalı və sona çatdırılmalıdır. "Yoxsa, biz bu tamaşanı sonadək seyr edə bilmərik, çünki bu tamaşanın sonu yoxdur", - ekspert vurğulayıb.

**Hazırladı: RƏŞAD**

# İrəvanda əsir əsgərlərimizə cinayət işi açıldı

**Aprel ayının 11-də dumanlı hava şəraitində səhvən Ermənistan ərazisinə keçən və orada yaxalanan Azərbaycan hərbçilərinə qarşı rəsmi ittiham irəli sürülüb.**

Erməni mediası xəbər verir ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Baş İstintaq İdarəsində başlanmış cinayət işinə rəhbərlik edən müstəntiqin vəsatəti prokuror tərəfindən qəbul edilib.

Sənəddə 11 aprel 2023-cü il tarixdə Azərbaycan Respublikasının vətəndaşı Aqşin Qabil oğlu Bəbirovun barəsində cinayət təqibinin başlanması barədə qərar qəbul edildiyi göstərilir.

Aktda onun qabaqcadan bir qrup şəxslə əlbir olaraq odlu silahla Ermənistan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçdiyi göstərilib. Buna görə, Aqşin Bəbirova ER Cinayət Məcəlləsinin 469-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndi və 340-cı maddəsinin 2-ci hissəsinin 1-ci bəndi üzrə ittiham oxunub.





Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, elə həmin gün Aqşin Bəbirova ittiham elan edilib. İrəvan şəhər ümumi yurisdiksiyalı cinayət məhkəməsinin qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib.

Prokuror Azərbaycan Respublikasının vətəndaşı Hüseyn Əhliman oğlu Axundovun dövlət sərhədini qanunsuz keçməsinə görə barəsində cinayət işi başlanılması barədə digər vəsatəti də təmin edib. Hüseyn Axundov bir qrup şəxs tərəfindən qabaqcadan razılaşdırılmaqla Ermənistan sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatını gömrük nəzarətindən gizlətməkdə, habelə odlu silahın qanunsuz saxlanılması və daşınması ilə bağlı ictimai təhlükəli əməllər törətməkdə təqsirləndirilir. Ona qarşı Ermənistan Cinayət Məcəlləsinin 340-cı maddəsinin 2-ci hissəsi və 335-ci maddənin 2-ci hissəsi ilə ittiham oxunub. İrəvan şəhər ümumi yurisdiksiyalı Cinayət Məhkəməsinin qərarı ilə Hüseyn Axundov barəsində həbs qətimkan tədbiri seçilib.

# Azərbaycanın uğurlu siyasi gedişi

**2023-cü il aprelin 14-də İrəvanda ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi bütün dünyada erməni kimliyinin mahiyyətinin tanınmasına bir daha öz möhürünü vurdu. Hansı ki, mərasim zamanı dizayner Aram Nikolyan Azərbaycan bayrağını bayraqdarın əlindən qoparıb yandırdı, sonra onunla birlikdə səhnədən qaçdı.**

Bu vandalizm səbəbilə Azərbaycan komandası yarışda iştirakdan imtina etdi. Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi birgə bəyanat yayaraq, Ermənistanın Azərbaycan idmançılarının təhlükəsizliyini təmin edə bilməməsinə işarə etdi. Ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağını yandıran Aram Nikolyan əvvəlcə saxlanılaraq polis bölməsinə aparıldı. Onun barəsində cinayət işinin başlanacağı bildirildi. Lakin Nikolyanın saxlanmasından qəzəblənən erməni millətçiləri polis idarəsinin ətrafına toplaşdığından, Nikolyan onun "bayraqyandırma" aktından cuşa gəlmiş kütlənin alqışlarının müşayiəti ilə tez buraxıldı.

Ölkəsinin imicini birtəhər xilas etməyə çalışan Ermənistanın baş naziri Nikol Paşinyan, Azərbaycan bayrağını yandırdığına görə, İctimai Televiziyaya (OT) stilistika studiyasının rəhbəri Aram Nikolyanı işdən çıxarmağı tapşırdı. Amma görünür, işsiz və dolanışıqsız qalmaq təhlükəsi Aram Nikodlyanı təhdid etmir. Erməni millətçiləri üçün o, artıq "qəhrəman" və "kumir"dir. Üstəlik, ona yaxın olan məlumatlı şəxs "@bagramyan26" teleqram kanalına bildirib ki, Aram Nikolyan çempionatın açılışının dizayneri olub və bizim bayrağımızı daşıyan bayraqdarın geyindiyi Azərbaycan bayrağı olan paltarları şəxsən özü dizayn edib, tikdirib. Görülən işlərə görə Nikolyan böyük qonorar da alıb. Yəni Aram Nikolyanın pul müqabilində Azərbaycan bayrağı ilə paltar tikməkdən qətiyyən şikayəti və narazılığı olmayıb.

Bunlar bu heç bir halda "kortəbii hərəkət" deyil, yaxşı planlaşdırılmış təxribat, uzaq hədəfləri olan siyasi vandalizm aktıdır. Ermənistan cəmiyyəti dözümsüzlük və nifrətə nə qədər yoluxduğunu bütün dünyaya bir daha göstərdi. Aydındır ki, belə epizodlar Ermənistanın özünə zərərdən başqa heç nə gətirmir. Tanınmış erməni bloger İşxan Verdyan isə bu haqda çox gözəl yazıb:

"Aparılan informasiya və reputasiya müharibəsində Ermənistan hər zaman uduzacaq, Azərbaycan isə qazanacaq. Qazanmaq üçün Azərbaycan heç nə etməli olmayacaq, ona gözləmək və Ermənistanı kobud səhvlər üstündə tutmaq bəs edəcək.

Ermənistan isə səhvin ardınca səhv edəcək, çünki hər şeyi düzəldəcək yeganə addım - etnik zəmində ayrı-seçkiliyi qadağan edən qanunun tətbiq olunması addımını erməni dövləti bundan sonra atmayacaq. Bunu etməyəcəklər, çünki daşnaklar yatıb Paşinyanın bir ermənini azərbaycanlıya qarşı qanunsuz hərəkətinə görə mühakimə edəcəyini və hökumət evinə "satqın" hayqırtıları ilə basqın edib jurnalisti devirməyi gözləyirlər. Jurnalistin özündə isə bunun qarşısını almaq üçün nə ruh, nə də ağıl çatışmır. O, ancaq susub oturub, daşnak təxribatlarını udub öz ölkəsinin nüfuzunun necə çökdüyünü, Azərbaycanın reputasiyasının necə yüksəldiyini seyr edə bilər.

Amma Paşinyanın bütün siyasəti məhz ona əsaslanırdı ki, Ermənistan hər şeydə doğrudur və sivildir, Azərbaycan isə haqsızdır və mədəniyyətsizdir. İndi bu "kozır" da Paşinyanın əlindən çıxdı və mən bir Ermənistan vətəndaşı kimi artıq ölkəmin gələcəyi üçün qorxuram. Məhz gələcək üçün, reputasiya üçün deyil, çünki tezliklə Ermənistanın reputasiyasından heç nə qalmayacaq".



## İrəvanda baş verən bayraq qalmaqalı kimə nə qazandırdı?

Görünür, bayraqyandıran Nikolyanın hərəkətinin əslində hansı tərəfə nəyi qazandırdığını və nəyi itirməyə sürüklədiyini 2 milyonluq dövlətcikdə yalnız bir bloger anlayıb. Qalan kütlə isə 44 günlük müharibədə göstərilə bilməyən hərəkətin qisasının Azərbaycan bayrağından alınmasından doğan eyforiyanın yaratdığı qisas illuziyiyasının kölgəsində rahatlanır. Belə çıxır ki, kütləni rahatlatmaq üçün erməni millətçiləri nə qədər çox bayraq yandırsa belə, "nifrət aktları" Ermənistanın müasir dünyada imicini daha da pisləşdirəcək. Xüsusən də erməni millətçilərinin müntəzəm olaraq mifik "soyqırım"da ittiham etdikləri Türkiyə ilə müqayisədə.

İndi bir daha 2023-cü il aprelin 24-də İrəvanda keçirilən beynəlxalq yarışmada - Ağır Atletika üzrə Avropa Çempionatında baş verən hadisənin təfərrüatlarına nəzər salaq. Bu idman tədbirində 260 ölkədən iştirakçı var idi. Bundan əvvəl isə, aprelin 10-da iki nəfər əsgərimiz sərhəddən azaraq Ermənistan tərəfə keçmişdi. Və əsgərimizin döyülmə, işgəncə nəticəsində düşdüyü vəziyyət bütün dünyaya servis edildi. Bəs, Azərbaycan tərəfi əsgərin salındığı vəziyyətlə dünyaya hansı mesajı verdi?

- Birincisi, 44 günlük savaşın qalib tərəfi ola-ola biz məğlub Ermənistanla sülhə gedirik, bunun üçün hər bir təşəbbüsü göstəririk. Amma Ermənistan bu sülh təşəbbüslərinə xələl gətirən hərəkətlərə yol verir. Ermənistan əsgərimizin döyülmə səhnəsiylə hansı mesajı verdi? Sözsüz, Ermənistan bu mesajı daxili auditoriya, məğlubiyyətin təzyiqi altında əzilən kütləni rahatlaşdırmaq üçün verdi, yəni "biz müharibədə məğlub olsaq da əvəzini belə çıxırıq".

Məlumatlara görə, Aram Nikolyan baş nazir Paşinyanın xanımı Anna Akopyanın yaxın ətrafındən olan adamdır. Üstəlik, Azərbaycanla Ermənistan hələ ki, müharibə vəziyyətində olduğundan, hər kəs rəsmi Bakının yarışa qatılıb-qatılmayacağını müşahidə edirdi. Çünki İrəvanda keçirildiyinə görə Azərbaycanın yarışa qatılması təkcə idman tədbirində iştirak kimi yox, rəsmi Bakının iştirakının sülh təşəbbüsünə verdiyi töhfə kimi qəbul olunurdu. Bu səbəbdən, Bakı düzgün qərar verdi.

Maraqlı nüans odur ki, Aram Nikolyan nədənsə İrəvanın Şaumyan rayonunda tutulur. Şaumyanın bədnam 26 Bakı komissarından biri olduğunu bilirik. Maraqlıdır, bu faktla Bakıya hansı mesaj verilmək istənilib...

İkinci məsələ - İrəvandakı idmançılarımız oteldə saxlanıldı. Ermənistan tərəfi idmançılarımızın təhlükəsizlik səbəbilə oteldə saxlanıldığını iddia etsə də, rəsmi Bakı idmançılarımızın oteldən çıxmasının əngəllədiyini, onların girov qismində saxlandığını irəli sürdü. Məlumat dünyaya belə çatdırıldı. Həm bayrağın yandırılması kimi beynəlxlaq yarışda beynəlxlaq normalara sığmayan hərəkət, həm də idmançılarımızın oteldə girovluqda saxlanması rəsmi İrəvanın təhlükəsizliyin təminatı məsələsində qeyri-kompetentliyini təsdiq etdi. Bu fakt beynəlxalq arenada ümumiyyətlə Ermənistanın sülh nizamlanmalarında da qeyri-kompetentliyini, sülh prosesinə xələl gətirdiyini və yenə də xələl verəcəyini təsdiqləyir.

Bundan başqa, Irəvanda keçirilən Ağır atletika üzrə Avropa çempionatında Azərbaycan və Türkiyəyə qarşı növbəti təxribat törədildi. Belə ki, beynəlxalq idman yarışında təmsil oluna dövlətlərin bayraqları arasında yalnız Azərbaycan və Türkiyənin Dövlət Bayrağı bir neçə hissəyə parçalanmış şəkildə asılıb. Bu dəfə dövlət bayraqlarına nifrət təzahürünün ilk ifadəçisi Aram Nikolyanın adı çəkilmir, amma bu əməli edənin Aramdan ilham aldığı şübhəsizdir. Bu, bir daha bariz şəkildə göstərir ki, Ermənistanda etnik nifrət və ayrı-seçkilik siyasətinin davam edir və erməni xalqının potensialı, istedadı yalnız bu kimi əməllərə qadirdir. Azaraq sərhədi keçən iki əsgərimizə qarşı isə cinayət işi qaldırılıb və onlar həbs edilibələr.

Baş verənlərə baxmayaraq, rəsmi İrəvan beynəlxalq tədbirlərdə boynuna götürdüyü öhdəliyi yerinə yetirə bilmədiyini, təhlükəsizliyi təmin edə bilmədiyini etiraf etməyərək günahını qəbul etmir. Son məlumatlara görə, Avropa Ağır Atektika Federasiyası çempionatın rəsmi açılışında bayrağımızın yandırılmasını sərt şəkildə pisləyərək, iki dəfə Azərbaycanla həmrəy olduğunu bildirdi. Əlavə olaraq da açıqladı ki, federasiyanın funksionerləri növbəti tədbirlərdə təxribatların baş verməməsi üçün prosesi nəzarətdə saxlayacaqlar:

"Avropa Ağır Atletika Federasiyası aprelin 14-də İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı bir nəfərin Azərbaycan bayrağını yandırması hadisəsini kəskin şəkildə pisləyir. AAAF bu son dərəcə ciddi və acınacaqlı jesti idman dəyərlərinin toxunulmazlığı və ədaləti oyunun universal prinsipləri hücum kimi qiymətləndirir.

AAAF daim Azərbaycan nümayəndə heyətinin yanında olub, idmançılara, məşqçilərə və rəsmilərə tam həmrəyliyini və dəstəyini ifadə edib. Azərbaycan nümayəndə heyətinin müsabiqəni tərk etmək məcburiyyətində qalmasından təəssüflənirik, eyni zamanda buna hörmətlə yanaşırıq. AAAF bu hadisəni diqqətdən kənarda qoymur və baş verənlər kontekstində əlavə tədbirlərin görülməsi imkanlarını nəzərdən keçirəcək. AAAF Azərbaycan komandası və Azərbaycan Federasiyası ilə həmrəydir".

Həmçinin, AAAF-ın İrəvana qarşı cəza tədbiri kimi, Ermənistanı 300 000 avro məbləğində cərimələyəcəyi də bildirilir. Amma bu versiyanın həyata keçib-keçməyəcəyini görəcəyik. Bundan başqa, federasiya Ermənistanın reputasiyasını şübhə altına qoyaraq, İrəvanı gələn il üçün Ağır Atletika üzrə Dünya Çempionatının bu ölkədə keçirilməsi hüququndan məhrum etməklə hədələyib. Amma bu variantın da reallaşıb-reallaşmayacağına şahid olacağıq. Nə qədər də olsa, 30 illik işğal müddəti ərzində Avropa dünyası İrəvanın başını sığallayıb. Bu səbəbdən, sözügedən cəzaların baş tutub-tutmaması da dünyanın ədalət tərəzisində nə qədər ağır gələcək, onu da görəcəyik.

Rəsmi İrəvanın bu hərəkətini ölkədə həqiqətləri obyektiv şəkildə söyləyən bloger İşxan Verdyan öz təbirincə tənqid atəşinə tutur:

"Ermənistan hökuməti, bütün bu qızğın həqiqətlərə baxmayaraq, inadla səhvini etiraf etməkdən və üzr istəməkdən imtina edir. Çünki Azərbaycandan üzr istəmək ləyaqət məfhumundan altdadır. Çünki dünya miqyasında necə səhv edirsə-etsin, Azərbaycana münasibətdə həmişə olduğu Ermənistan səhv edə bilməz və bu müzakirə belə edilmir.

Bu, mənim əvvəllər yazdığım, Ermənistanın sivil dünyanın qanunlarına görə yox, yalnız faşist məfhumlarına görə yaşadığını göstərən bir nümunədir".

Məsələn, Türkiyədə 100 mindən çox erməni yaşayır, ermənilər sağsalamat gələ, yaşaya, işləyə bilər və onları alçaltmaq, bayraqlarını və digər simvollarını yandırmaq, başqa cür nifrət və ayrı-seçkilik nümayiş etdirmək heç kimin ağlına da gəlməz. Amma Ermənistan son vaxtlar mütəmadi olaraq milli ədavət və onun erməni cəmiyyətində necə cücərdilməsi ilə bağlı qalmaqallara məruz qalır. Erməni millətçilərinin anti-türk və anti-Azərbaycan "fokusları" artıq adi hala çevrilib. Lakin onların ərköyün fokuslarına artıq ermənilərin baş himayədarı olan Rusiyaya qarşı "nifrətin alovlandırılması" da əlavə edilib. Şübhəsiz ki, bu, Ermənistan dövlətçiliyi üçün yaxşı heç nəyə gətirib çıxarmayacaq.

**Yuxarıda dediklərimizdən belə bir nəticə çıxara bilərik:**

**1.** Əvvəllər biz erməni xislətinin nə olduğunu dünyaya çatdırmağa çalışırdıqsa və yenə də dünyanın ermənləri müdafiə etməsinin qarşısını ala bilmirdiksə, bu dəfə dünya erməni xislətinin mahiyyətini öz gözləriylə gördü;

**2.** Beynəlxalq yarışda bayrağımızın yandırılması, ardınca isə Azərbaycan və Türkiyə bayraqlarının cırıq halda asılması Ermənistanın dövlət kimi sülh məfhumundan uzaq olduğunu, sülhə hazır olmadığını göstərdi;

**3.** Azərbaycan situasiyadan uğurlu şəkildə faydalandı və dünyanın ictimai rəyinin öz xeyrinə yönəlməsində uğura imza atdı.

**Ülviyyə ŞÜKÜROVA**

Bakı şəhər sakini Hüseynova Alidə Bəhman qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, qardaşı Namazov Tapdıq Bəhman oğlu 2018-ci il sentyabr ayının 1-də qanunsuz olaraq 10 il müddətinə həbs olunub və artıq 5-ci ildir türmədədir. Onun sözlərinə görə, bir müddət sonra eynilə qardaşı oğlu Namazov Emin Tapdıq oğlu da qondarma ittihamlarla azadlıqdan məhrum olunub və 3 illik məhbəs həyatından sonra, təxminən 1,5 il əvvəl azadlığa çıxıb.

# Tikinti şirkətinə "krışalıq" etmək adı ilə 26 mənzili ələ keçirdilər...



## Vasif Talıbov və Bəylər Eyyubovun qohumları haqda şok ittihamlar



### Vasif Talıbovun Dövlət Vergi Xidmətində çalışan qohumu Natiq Əliyev və iş ortağı, Bəylər Əyyubovun qohumu Mahir Xudiyev iş adamına təzyiq göstərirlər

**Alidə Hüseynova deyir ki, qardaşının və qardaşı oğlunun qanunsuz həbsində keçmiş Vergilər Nazirliyinin, indiki İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşları Mahir Xudiyev və Natiq Əliyev günahkardırlar. Yeri gəlmişkən, N.Əliyevin hazırda Dövlət Vergi Xidmətinin Nərimanov filialında çalışdığı bildirilir...**

Şikayətçi xanımın məlumatına görə, qardaşı oğlu Emin Namazov "OMAKS-3" Mənzil-Tikinti Kooperativinin təsisçisidir. "OMAKS-3" MTK 2008-ci ilin 5 fevral tarixində Vergilər Nazirliyinin Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyat İdarəsi tərəfindən qeydiyyata alınıb və E.Namazov şirkətin təsisçisi və direktoru təyin edilib. Tapdıq Namazovun isə bu şirkətlə heç bir rəsmi əlaqəsi olmayıb, heç bir maliyyə arayışında adı keçməyib. Onun həbsinə səbəb, sadəcə, Emin Namazovun atası olması olub.

Alidə Hüseynova bildirir ki, Bakı şəhəri İcra Hakimiyyətinin 26.04.2012-ci il tarixli, 170 saylı sərəncamı ilə "OMAKS-3" MTK-ya Yasamal rayonu, A.Salamzadə küçəsi 593-cü məhəllədə 1 girişli, 10 mərtəbəli, 54 mənzildən ibarət yaşayış binası tikməyə icazə verilib. Binaya sərəncam alanadək artıq onun üç yerüstü mərtəbəsi inşa edilib və 2012-ci ilin sərəncamı ilə sadəcə torpağın təyinatı dəyişdirilib, yaşayış binası olub.

Qeyd edək ki, Emin Namazovun atası Tapdıq Namazov da sahibkar olub, uzun illər ərzində çoxlu sayda müəssisələr qurub, yüzlərlə Azərbaycan vətəndaşını işlə təmin edib və heç bir zaman kiməsə qarşı haqsızlıq etməyib. Sonradan o, bir sahibkar kimi Vergilər Nazirliyində işləyən, özlərini Prezident İlham Əliyevin və Prezidentin Mühafizə Xidmətinin rəisi Bəylər Eyyubovun yaxın qohumu kimi təqdim edən Əliyev Natiq Əli oğlu və Xudiyev Mahir Bilman oğlunun Emin Namazova məxsus MTK-ya qurduğu oyuna düşüb. Bu oyun isə Natiq Əliyevin qardaşı Raiq Əliyevin əli ilə qurulub.

Belə ki, T.Namazovun 2011-ci ildən şərikli iş birliyində olduğu Raiq Əliyevə 80 000 (səksən min) manat borcu yaranıb. Bu məsələni "yoluna qoymaq" üçün qardaşı Natiq Əliyev və onun iş yoldaşı Mahir Xudiyev Tapdıq Namazovla əlaqə yaradıblar. Sahibkar borcunun əvəzinə Yasamal rayonu, A.-Salamzadə küçəsi 593-cü məhəllədə oğlu Emin Namazovun tikdiyi binadan mənzil verə biləcəyini deyib. Tərəflər razılaşıb, 26 və 27 saylı mənzillər 102 500 manata Raiq Əliyevin adına sənədləşdirilib. Həmin vaxt M.Xudiyev və N.Əliyev binanın nə səbəbdən yarımçıq qaldığını soruşanda Tapdıq Namazov həm Vergilər Nazirliyindən, həm də Fövqəladə Hallar Nazirliyindən imkan verilmədiyini bildirib. Natiq Əliyevlə Mahir Xudiyev Emin Namazovun tikdiyi 54 mənzilli binanın 26 mənzilini (1.6 milyon manatlıq) onların, qohumlarının, yaxınlarının adına keçirmək şərtilə kömək edəcəklərinə, yəni tikintiyə "krışalıq" edəcəklərinə söz veriblər. Nəticədə onlar binanın hər m2-ni 470 manatdan yazdırmaqla, qohum-əqrabalarının, dost-tanışlarının adına tam ödəniş olduğunu göstərən maliyyə arayışları alıblar. Beləliklə, 2015-ci ildə 26 mənzil bir günün içində Mahir Xudiyev və Natiq Əliyevin qohumları arasında bölüşdürülüb.

Şikayətçi deyir ki, həmin mənzillər ümumilikdə 14 nəfərin adına rəsmiləşdirilib, bunlardan 7 nəfər M.Xudiyevin, digər 7 nəfər də N.Əliyevin qohumu olub. Onun sözlərinə görə, Natiq Əliyev Naxçıvan MR Ali Məclisinin sabiq sədri Vasif Talıbovun qohumu, yəni həyat yoldaşınını dayısı qızı ilə evlidir. Bu səbəbdən də, "Naxçıvan xanı"nın qılıncının dalı da, qabağı da kəsən dönəmdə onun da hər yerdə, bütün rəsmi qurumlarda sözü keçib. Beləliklə, "OMAKS-3" MTK-ya "krışalıq" etməyin qarşılığında Yasamalda tikilən binanın 13 mənzilinə sahiblənib. Digər 13 mənzil də, yuxarıda qeyd etdiyimiz kimi, ortağı M.Xudiyevə çatıb.

A.Hüseynovanın sözlərindən belə anlaşılır ki, Vasif Əliyevin Naxçıvandakı hökmranlığı sona yetsə də, qohumu Natiq Əliyev hələ də müəyyən qurumlarda, hətta Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində söz sahibidir. Məhz bu səbəbdən, müstəntiq Ziyafət Quliyev vasitəsilə hələ də qardaşı oğlu Emin Namazova təzyiq göstərir, ona hədə-qorxu gəlir.

Şikayətçinin sözlərinə görə, T.Namazovun işi üzrə keçirilən Apellyasiya Məhkəməsi zamanı Natiq Əliyev qanunsuz yolla sahib olduğu evlərdən 3-nü (Onlardan biri qardaşının, ikisi isə əmisi oğlunun adınadır) yazılı ərizə ilə geri qaytarıb, yəni həmin mənzillərdən könüllü şəkildə imtina edib. Guya bununla Tapdıq Namazova göməklik etmək, dəymiş zərəri aşağı salmaq niyyətində olub. Buna baxmayaraq, o, indi həmin evləri geri almaq üçün müxtəlif yollarla Emin Namazova təzyiq göstərir. "Məhkəməyə özü ərizə təqdim etsə də, indi Eminə təzyiq göstərir ki, həmin mənzillər geri ver. O da deyir ki, özün məhkəməyə ərizə təqdim etmisən, indi niyə istəyirsən? Üstəlik də, hazırda məhkəmə gedir, hakim nə qərar versə, ona da əməl olunacaq. Lakin Natiq Əliyev evi ala bilmədiyi üçün yenidən Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə şikayət etdirib. Özü isə Ziyafət Quliyevə göstəriş verib ki, Emini çağır, təzyiq elə, hədə-qorxu gəl", - deyə A.Hüseynova bildirir.

Şikayətçi deyir ki, 05 yanvar 2017-ci il tarixində də Mahir Xudiyev və Natiq Əliyev A.Salamzadə küçəsi 593-cü məhəllədə yerləşən hündür mərtəbəli yaşayış binasının tam hazır olmadığını görərək, adlarına maliyyə arayışları yazdırdıqları şəxslərin adından kollektiv surətdə şikayət ərizəsi yazdıraraq Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciət ediblər. Nəticədə bu qurumda T.Namazov barəsində cinayət işi açılıb və yekunda iş Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Orada isə hakim Samir İmamverdi oğlu Əliyev Tapdıq Namazovun vəkillərinin təqdim etdiyi sübutlara baxmayaraq, 26 avqust 2019-cu il tarixində onu 10 il 6 ay müddətinə azadlıqdan məhrum edib. Bu hökmlə razılaşmayan Tapdıq Namazov 1-ci İnstansiya Məhkəməsinin hökmündən Apellyasiya şikayəti verib. Apellyasiya Məhkəməsi isə həbs müddətini 8 ilə endirib. Hazırda işə Ali Məhkəmədə baxılır. Alidə Hüseynova deyir ki, məhkəmənin ədalətli qərar verəcəyinə və istər qardaşı, istər də qardaşı oğlu barəsində qanunsuz çıxarılan hökmün qüvvədən düşəcəyinə inanır.

**Hazırladı: KƏNAN**

***Redaksiyadan: Yazıda adları keçən qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Azyaşlı qızlarını atıb getdi, 5 il sonra isə...

## Şamaxı sakini Əfqan Məmmədov keçmiş gəlininin "yüngül həyat tərzi" keçirdiyini iddia edərək, nəvələrinin ondan alınmasını tələb edir

Şamaxı rayonu, Seyid Əzim Şirvanı küçəsi, 6 nömrəli evin sakini Məmmədov Əfqan Əlisəməd oğlu "Hürriyyət" qəzetinin redaksiyasına gələrək, qarşılaşdığı haqsızlığı dilə gətirib. Ə.Məmmədov məhkəmələrin qanunsuz qərarından, rəsmi qurumların fəaliyyətsizliyindən şikayətçidir:




"Öncə onu deyim ki, oğlum Məmmədov Rauf Əfqan oğlu 4 il qabaq müəyyən səbəblərə görə həyat yoldaşından boşandı. Onun bu evlilikdən 2 qız övladı var. Məmmədova Nurayın 11, Məmmədova Gülayın isə 10 yaşı var.

Uşaqlar anadan olan gündən öz yanımızda qalırdı. Anaları Əhmədova Şəlalə Abid qızı 4-5 il idi ki, onları atıb getmişdi. Təxminən 5 ay qabaq gəldi və bizdən uşaqlarını tələb etdi. Nəticədə, bu işə hüquq müstəvisində baxıldı və məhkəmə uşaqları anaya verdi. Buna baxmayaraq, oğlum hər ay alimenti vaxtında ödəyir. Lakin ananın yüngül həyat tərzi sürməsi və xəstə olması bizi narahat edirg

Belə bir anaya uşaq vermək olarmı?

Təəssüflə qeyd etməyə məcburam ki, uşaqların anasının, yəni keçmiş gəlinimin hazırda Nəcəf adlı şəxslə münasibəti varg Ümumiyyətlə, keçmiş gəlinim və onun anası yüngül həyat tərzi sürürlər. Şəlalə uşaqlarını atıb getdi, 4-5 il onlardan xəbəri olmadı. İndi isə özü "Hepatit b" xəstəsi, qardaşı isə narkomandır.

Bütün bu dediklərimi Şamaxı məhkəməsinin hakimi Etibar Hümbətovun diqqətinə çatdırsam da, o, qərarı keçmiş gəlinimin xeyrinə verdi".

Əfqan Məmmədov deyir ki, bu qərar onu qane etmədiyinə görə Sumqayıt Şəhər Apellyasiya Məhkəməsinə müraciət edib: "Hakimə bildirdim ki, uşaqlar psixoloqlar tərəfindən dindirilməyib, ekspertin yoxlanışından keçməyiblər. Ananın yaşayış ünvanı Göyçay rayonu olsa da, özü Bakıda kirayədə qalır. Hakim Şəmsəddin Abbasov bildirdi ki, mən işi qəyyumluğa çıxarıram, ekspertin rəyindən sonra biz işə baxarıq. Beləliklə, uşaqlar anasının və ana nənəsinin yanında danışdırıldı. Onlar analarını qəbul etmədilər, onunla getmədilər. Bundan sonra biz uşaqları götürüb evimizə gətirdik.

Bir neçə gün sonra Sumqayıt Şəhər Apellyasiya Məhkəməsindən bildiriş gəldi ki, ayın 27-də məhkəmə prosesi keçiriləcək. Məhkəməyə qədər olan vaxt ərzində qızın anası Şamaxı rayonunun İcra Hakimiyyətində yeni işə təyin olunan Mehriban adlı qadının yanına gedərək yalvarır, ağlayır və ekspertizanın yenidən keçirilməsini xahiş edir. Həmin Mehriban adlı qadın hakimin nömrəsinə zəng vurub icra başçısının adından istifadə edib və daha sonra deyib ki, guya, bu

> "Mənə məlumat çatdı ki, Prezident Aparatından Ağalar müəllim Sumqayıt Şəhər Apellyasiya Məhkəməsinə zəng vurub və uşaqların analarında qalması ilə bağlı tapşırıq verib"

ekspertiza ananın xəbəri olmadan keçirilib, yenidən ekspert təyin olunmalıdır.

Ayın 25-də Şamaxı İcra Hakimiyyətindən bizə zəng gəldi ki, ekspertizada yanlışlıq olub, uşaqlarla yenidən söhbət aparılmalıdır. Mən onlara dedim ki, artıq gecdir, iki gün sonra məhkəmə olacaq.

Məhkəmə zamanı hakim mənə dedi ki, bu nə məsələdir, qəyyumluğun cavabı niyə gecikir? Əlavə etdi ki, Mehriban adlı qadın ona zəng vuraraq, ekspertin səhv qərar verdiyini bildirib. Hakim mənə sual verdi ki, nəvələrini dindirmədilər? Mən də dedim ki, dindirdilər, uşaqlar anaları ilə getməkdən imtina etdi. Hətta onu da bildirdim ki, uşaqlar cavab verərkən biz onların yanında olmamışıq, uşağın yanında anası və nənəsi olub.

Nəticədə, ekspertizanın rəyi olsa da, hakim uşaqları ananın qəyyumluğuna verdi. Mənə orada belə bir məlumat çatdı ki, Prezident Aparatından Şamaxının kuratoru Ağalar müəllim Sumqayıt Şəhər Apellyasiya Məhkəməsinə zəng vurub və uşaqların analarında qalması ilə bağlı tapşırıq verib.

Mən Ağalar müəllimlə telefon vasitəsilə əlaqə yaratdım, hər şeyi ona danışdım. Dedi ki, məhkəməyə 10 gün qalmış zəng vur, tapşırıq verəcəm. Məhkəməyə 5 gün qalmış zəng vurdum, mənimlə başqa tonla danışdı, "məni niyə narahat edirsən" və s. dedi. Mən də ona "nəvələrimin taleyi ilə niyə oynayırsınız, sizə nə pisliyim dəyib?", - dedim. Bu zaman aramızda qarşılıqlı təhqirlər oldu".

Şikayətçi iddia edir ki, bu qanunsuzluqların arxasında keçmiş polis əməkdaşı da dayanır: "Şamaxı Məhkəməsində qərarı qüvvədə saxlamaq üçün bizi çox sıxdılar. Sonradan bildik ki, bizə qarşı haqsızlığın başında keçmiş polis işçisi olan Mahir durur. Deməli, keçmiş gəlinimin qardaşı Əhmədov Aqil Abid oğlu narkotika ilə tutulur. Elə həmin gündən Mahirlə gəlinimin anası arasında münasibət başlayır. Həmin vaxt polisə 4 min manat verərək, uşağı oradan çıxardırlar. O vaxtdan da Mahir bütün işlərin başında duraraq, imkan vermir ki, iş ədalətli aparılsın".

Ə.Məmmədov deyir ki, bütün müvafiq qurumlara müraciət etsə də, onun şikayətinə baxılmır: "Cənab Prezidentə, Mehriban xanıma, Fuad Ələsgərova, Ramiz Rzayevə məktublar ünvanlamışam. Amma heç birindən cavab gəlmədi. Məktubu Ədliyyə Nazirliyinə göndərirlər, oradan da cavab yoxdur. Mənim xahişim odur ki, uşaqlar danışdırılsın, onlar nə desə, o da olsun. Çünki qız nəvələrimin o ailədə qalması onların gələcəyi üçün təhlükəlidirg".





Şikayətçinin sözlərinə görə, anası uşaqların atası ilə görüşünə də icazə vermir: "Bir neçə həftə əvvəl onların ataları ilə görüşünə icazə vermədiyinə görə, uşaqların anasına 500 AZN cərimə yazıldı. İşi Apellyasiya Məhkəməsinə veriblər. Orada bildiriblər ki, guya uşaqlar bizi istəmir".

Ə.Məmmədov Nərimanov rayon İcra və Probasiya Şöbəsinin rəisi Zaur Abdullayevə müraciət edərək, məsələyə hüquq müstəvisində müdaxilə etməsini xahiş edir. Onun dediyinə görə, nəvələrinin anası, keçmiş gəlini Məmmədova Şəlalə Abid qızı və anası İlhamə Əhmədova azyaşlı uşaqları döyərək və qorxudaraq, onların məhkəmə qərarı ilə təmin edilmiş "uşaqlarla ünsiyyət" hüququnu pozmaqla məşğuldurlar. Nərimanov rayon İcra və Probasiya Şöbəsi isə bu işə qanun çərçivəsində müdaxilə etmək istəmir: "İcra məmuru Rəfael Səfərov həmin rayonun poliklinika və xəstəxanasının psixoloqunu dəvət edib, onun iştirakı ilə azyaşlı övladlarımı dindirə bilərdi. Lakin o və Nərimanov rayon İcra Hakimiyyətində Qəyyumluq və Himayəçilik Komissiyasının sədri İradə Muradova uşaqlarımla ünsiyyət tələbimə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərardadının icra edilməsinə şərait yaratmırlar".

Şikayətçi Z.Abdullayevdən xahiş edir ki, bu məsələnin həlli üçün rəsmi qayda psixoloq dəvət olunsun və uşaqlar müvafiq dövlət rəsmilərinin və onların iştirakı ilə dindirilərək izahatları alınsın: "Bundan əlavə, nəvələrimə təsir göstərən və nəticə etibarilə atasınən və mənim onlarla ünsiyyət hüquqlarımın pozulmasına yönəlmiş əməllərin qarşısının alınması üçün qanunamüvafiq sərt tədbir görülməsini sizdən xahiş edirəm".

Sonda Əfqan Məmmədov "Hürriyyət" qəzeti vasitəsilə ölkə rəhbərliyinə də müraciət edərək, onları 2 azyaşlı qızın taleyinə biganə yanaşmamağa çağırır. O, yetkili qurumlardan ən azı nəvələrini görmək hüququnun təmin edilməsinə şərait yaratmalarını xahiş edir.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.***

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) keçmiş vitse-prezidenti Mikayıl İsmayılovun adı oxucularımıza yaxşı tanışdır. Çünki SOCAR-da çalışdığı 2005-2021-ci illər ərzində, xüsusən də korrupsiya və rüşvət faktları ilə bağlı mətbuatda onun barəsində dərc olunan məqalələri saymaqla bitməz. Bu adamın arxası o qədər güclü olub ki, fəaliyyəti dönəmində nə mətbuatda gedən yazılara əhəmiyyət verib, nə də çoxsaylı milyonluq yeyinti faktlarına rəğmən, kimsə ona "gözünün üzərində qaşın var" deyib.**






# Mikayıl İsmayılovu

## SOCAR-ın keçmiş vitse-prezidenti 2 rayonun ərazisini ələ keçirib...

Təsadüfi deyil ki, SOCAR-ın keçmiş prezidenti Rövnəq Abdullayevin 12 vitse-prezidenti olsa da, M.İsmayılov onların hər birindən, hətta şirkət rəhbərindən belə, özünü üstün tutub, kimsə ilə hesablaşmayıb. Məhz bu səbəbdən də, fəaliyyəti dönəmində onu bəzi mətbu orqanlar "SOCAR-ın boz kardinalı" kimi təqdim edirdilər. Baxmayaraq ki, digər 11 vitse-prezidentdən fərqli olaraq Mikayıl İsmayılovun bu şirkətdəki vəzifəsinin konkret nədən ibarət olduğu bəlli deyildi. Yəni SOCAR-ın rəsmi saytında hər bir vitse-prezidentin hansı sahəyə məsul olduğu öz əksini tapsa da, M.İsmayılovun adı sadəcə "vitse-prezident" olaraq qeyd edilirdi.

Bütün bu qeyri-müəyyənlik də onun barəsində müəyyən şayiələrin yaranmasına səbəb olmuşdu. Məsələn, belə bir fikir var idi ki, Rövnəq Abdullayev sadəcə "fiqurdur", SOCAR-ın prezidenti vəzifəsini qeyri-rəsmi olaraq Mikayıl İsmayılov icra edir.

Əslində isə, bu kimi informasiyalar elə M.İsmayılovun məxfi göstərişi əsasında onun adamları tərəfindən məqsədli şəkildə cəmiyyətə ötürülürdü. O, bununla özünün "toxunulmaz" olduğunu nümayiş etdirmək istəyirdi. Bəzi hallarda isə ölkə rəhbərliyinin, hətta Birinci vitse-prezidentin adından da istifadə edirdilər. Məsələn, belə fikir vardı ki, guya, M.İsmayılov Mehriban xanımın "adamıdır", ölkənin ən nəhəng şirkəti olan SOCAR-a nəzarət məhz ona həvalə olunubg

Xatırladaq ki, 2019-cı ildə SOCAR-da vergi yoxlaması nəticəsində vitse-prezident Mikayıl İsmayılovun fəaliyyətində çoxsaylı pozuntular və mənimsəmələr aşkar edilmişdi. Bu səbəbdən, məlum yoxlamadan sonra, onun "monopoliya"sında olan və əsas qazanc mənbələrindən biri hesab edilən təchizat və satınalma məsələləri ondan alınaraq, SOCAR-ın başqa bir vitse-prezidentinə, konkret desək, Elşad Nəsirova həvalə edilmişdi.

Maraqlıdır ki, milyonlarla manat yeyinti faktı üzə çıxdıqdan sonra çoxları tərəfindən M.İsmayılovun həbsi gözlənilsə də, tamamilə əksi oldu. Belə ki, onu himayə edən qüvvənin müdaxiləsi ilə SOCAR-ın təchizat və satınalma məsələləri, şirkətin vitse-prezidenti olaraq, yenidən onun nəzarətində verildi, yəni dövlət şirkətində "qoyunu yenidən qurda tapşırdılar".

Üstəlik, vəzifələrinin konkret dairəsi məlum olmadan, Mikayıl İsmayılovun rəsmi vitse-prezident postunu tutmaqda davam etməsi müxtəlif ehtimallar da yaradırdı. Hansı ki, onun



Rövnəq Abdullayevin yerinə gətiriləcəyini deyənlər də var idi. Bütün bunlar da təsadüf deyildi. Çünki həmin günə qədər Mikayıl İsmayılovun adı "NOBEL OİL" şirkətində sovrulan milyardlar və keçmiş MTN olayları da daxil olmaqla, bir çox qalmaqallı hadisələrdə hallansa da, bütün bunlardan toxunulmadan çıxa bilmişdi.



### Mikayıl İsmayılov necə oliqarxa çevrildi?

Yeri gəlmişkən, hələ SOCAR-ın vitse-prezidenti olduğu dönəmdə



M.İsmayılov bir çox holdinqlərə sahib olmuşdu, bacarıqlı və "xeyirxah" iş adamı kimi təqdim olunurdu. Üstəlik, "Cadillac Bakı Mərkəzi" və "Chevrolet Azerbaijan" diler firmalarının sahibi olan M.İsmayılovun bu "bacarığı" sayəsində rəhbərliyində təmsil olunduğu SOCAR şirkətinə dəyərindən artıq qiymətə yüzlərlə bahalı avtomobil satdığı da iddia edilirdi. Onu da deyirdilər ki, M.İsmayılov bu yollarla qazandığı pulları nə banklarda, nə də sandıqda saxlayır, həmin pulları qeyri-neft sektoruna, amma daha gəlirli sahələrə yatırır.

Bu baxımdan, 2021-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə SOCAR-ın vitse-prezidenti vəzifəsindən azad edilməsi onu o qədər də narahat etmirdi. Çünki bu şirkətin rəhbər vəzifələrində çalışdığı 16 il ərzində o qədər sərvət toplamışdı ki, bütün nəsli bundan sonra 100 il yesə də, tükənməz. Üstəlik, M.İsmayılov SOCAR-dakı bəzi qazanc mənbələri



əldən çıxdı deyə oturub yığdığı pulları yemək fikrində də deyil. Əksinə, o, indi biznes sahəsinə daha çox vaxt ayırmaqla, necə deyərlər, sərvətinə sərvət qatmaqdadır. Məsələn, keçmiş vitse-prezident vəzifədən atıldıqdan sonra kənd təsərrüfatı sahəsində də xeyli qabağa gedib. Şamaxı, Ağsu və Kürdəmir rayonlarının əkin və otlaq sahələrinin böyük hissəsinin məhz Mikayıl İsmayılova aid olduğu bildirilir. Ümumilikdə isə, Mikayıl İsmayılovun maliyyə sərvəti araşdırılsa, bəlkə də adı dünyanın milyarderləri siyahısına düşə bilər.

### Keçmiş vitse-prezidentin obyektlərinin siyahısı...

Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, M.İsmayılov uzun illərdir medianın gündəmində olan şəxsdir. Bu səbəbdən, onun sahibi olduğu villalar, mənzillər, bahalı maşınlar, obyektlər, torpaq sahələri və s. barəsində də çoxsaylı informasiyalar verilib, qəzet və saytlarda fotoları dərc olunub. Lakin "Hürriyyət"in mötəbər qaynaqlardan əldə etdiyi son məlumatlar belə deməyə əsas verir ki, keçmiş vitse-prezident 2021-ci ildən sonra biznes imperiyasını xeyli genişləndirib, yeni-yeni obyektlər alıb, böyük torpaq sahələri ələ keçirib və s. Odur ki, gəlin, Mikayıl İsmayılovun son vaxtlar əldə etdiyi obyektlərlə birbir tanış olaq. Məlumat üçün bildirək ki, onların böyük əksəriyyəti müxtəlif qohumlarının adına sənədləşdirib:

- *Ağsu-Kürdəmir yolunun kənarında, Şahbəyli kəndinə dönən yolda fəaliyyət göstərən makaron zavodu. Bu zavod M.İsmayılov tərəfindən yeni satın alınıb;*
- *Mikayıl İsmayılovun qardaşı Müşfiqin adına olan idman kompleksi. Yanındakı stadionun müdiri isə dayısı oğlu Nizamidir və hazırda 5000 manata AFFA-ya icarəyə verilib;*
- *Ağsu şəhərində, cayın kənarında 4 hektar ərazinin içində 3 ədəd villa, böyük meyvə bağı. Qardaşı Müşfiqin adınadır;*
- *"Pereval" deyilən ərazidə "Panorama" və "Axırıncı aşırım" adlı restoranlar. Hər birinin təxminən 3 milyon manat qiyməti olduğu bildirilir. "Panorama" M.İsmayılovun sürücüsü Yaşarın, "Axırıncı aşırım" isə qardaşı Mübarizin adınadır;*
- *Şamaxının Şərədli kəndi yaxınlığında "Şərədli" restoranı da qardaşı Müşfiqin adınadır;*
- *Ağsu parkının ərazisində "Ümid" restoranı və "Ümid" adlı aptek. Hər iki obyekti yeznəsi Ərəstun işlədir;*
- *Bakıda, 7-ci mikrorayonda 2 ədəd 16 mərtəbəli bina. Hazırda binadakı mənzillər satışa çıxarılıb. M.İsmayılovun daha çox qazanması üçün həmin binada işləyən işçilərlə əmək müqaviləsi bağlanılmır;*
- *Bakıda yerləşən "Çinarlı Plaza". Köməkçisi Rövşənin adınadır;*
- *"E-manat" ödəmə terminalları da Mikayıl İsmayılova məxsusdur;*
- *Bakıda "Modern" şirkətlər qrupuna daxil olan, eyniadlı hospitalın iki binası;*
- *"Sədərək" Ticarət Mərkəzinin qarşısında, "Meyvəli" ilə üzbəüzdə yerləşən "Azqranata" logistika mərkəzi. 6 ədəd böyük anbarı var;*
- *Gədəbəydə təzə açılan pansionat;*

*- Şamaxı rayonunun Sağyan kəndi ərazisində, meşənin içində 3 ədəd villa, yolun kənarından görünür;*
*- Avahlıda villa və 5 ulduzlu otel;*
*- Çuxuryurdda və Kirovkada villalar;*
*- Pirallahıda dənizin kənarında böyük qəsr;*
*- "Azqranata" zavodu da Mikayıl İsmayılova məxsusdur;*
*- Ağsuda, stadionun arxasında 2 ədəd hasara alınmış 3 hektar boş torpaq sahəsi;*
*- Ağsuda "Rabitəbank"ın binası. Binada notarius və sığorta şirkəti də fəaliyyət göstərir. Qardaşı Müşfiqin adınadır və ümumilikdə 5 min manata icarəyə verilib;*
*- "Rabitəbank"ın yanında hasara alınmış 2000 kvadrat metr boş ərazi. Həmin ərazini Mikayıl İsmayılov vaxtilə Ağsu xəstəxanasında həkim işləmiş Kamran adlı həkimdən alıb;*










# n "topdağıtmaz" sərvəti

*- Ağsuda "Azqranata"zavoduna məxsus 2 ədəd mağaza;*
*- Ağsuda daha 6 ədəd villa;*
*- Çiyni kəndində "Aqropark". Dövlət dəstəyi ilə tikilib, qardaşı Müşfiqin adınadır;*
*- Çiynidə 5 hektar ərazidə böyük anbar;*
*- Ağsuda, qaz idarəsi ilə üzbəüz böyük anbar;*
*- Ağsunun Hacqədirli kəndi ərazisində 3 min hektar üzüm və nar bağı. Dayısı oğlu Nazimin adınadır;*
*- "Azqaranata" ilə üzbəüz böyük villa;*
*- Ağsu şəhərində Regional Qaz İdarəsinin yerləşdiyi bina. SOCAR-a 7500 manata icarəyə verilib;*
*- Ağsu şəhərində hazırda tədris mərkəzi, kurs kimi istifadə olunan bina. Yeznəsi Ərəstunun adınadır və Güvənc adlı şəxsə 4000 manata icarəyə verilib;*
*- Fotoda gördüyünüz digər obyektin birinci mərtəbəsi aptek, üst mərtəbəsi isə gözəllik salonudur, yanında isə İran məhsulları satılan mağaza fəaliyyət göstərir. M.İsmayılovun yeznəsinin adına olan obyekt Sahib adlı şəxsə 2500 manata kirayəyə verilib;*
*- Ağsuda çay kənarında İmişli neft idarəsinin maşınları "Azqranata" zavodu üçün artezian quyuları vururlar. Halbuki, həmin maşınların fərdi şəxslərə xidmət etməsi qadağandır;*
*Əlbəttə, Mikayıl İsmayılovun yuxarıda sadalanan obyektləri yalnız bizə bəlli olanlardır. Şübhə yoxdur ki, onun biznes imperiyasına daxil olan obyektlərin sayı dəfələrlə çoxdur. Odur ki, növbəti saylarımızda bu haqda daha geniş məlumat verməyə çalışacağıq.*

**Hazırladı: KƏNAN**

***P.S. SOCAR-ın keçmiş və indiki rəhbərliyində çalışan bir sıra oliqarx məmurlarla bağlı da geniş araşdırma aparırıq. Növbəti saylarımızda M.İsmayılovla yanaşı, onların hər biri haqda da ayrıca yazı dərc edəcəyik. Bizi izləyin.***






















# "Şəki Məşğulluq Mərkəzində ancaq rüşvət verənlərə şərait yaradılır..."

## Rayon sakini Mərkəzin direktoru Abdulla Kərimov və şöbə müdiri İlham Mikayılovdan şikayətçidir





**Şəki rayonu, Yeni Çələbixan qəsəbəsində məskunlaşan Laçın rayon sakini Abdullayev Əbdül Nurqələm oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin saytımız vasitəsilə Prezident İlham Əliyevə, Baş prokuror Kamran Əliyevə, DTX rəisi Əli Nağıyevə, eləcə də Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyliyə ünvanladığı məktubunu olduğu kimi dərc edirik:**

"Mən, Şəki rayonu, Yeni Çələbixan qəsəbəsində məskunlaşan Laçın rayon sakini Abdullayev Əbdül Nurqələm oğlu, yazıb sizə bildirirəm ki, Şəki Regional Məşğulluq Mərkəzinin direktoru Abdulla Kərimovun yarıtmaz fəaliyyəti və özbaşınalıqları ciddi şəkildə vətəndaş narazılığına səbəb olur. Abdulla Kərimov yüksək ranqlı bir məmura arxayın olması nəticəsində, özünün korrupsiya əməllərinə xüsusi don geyindirə bilib. Vətəndaşlara "növbəniz çatmayıb" və s. kimi bəhanələr edir, imkanlı şəxslərdən isə pul almaq hesabına onları önə çəkərək özünəməşğulluq proqramına cəlb edir. Digər həssas qrupda olan vətəndaşlardan rüşvət ala bilmədiyinə görə, onlar diqqətdən kənarda qalır, yubadılır.

Şəki rayon Məşğulluq Mərkəzində Abdulla Kərimov başda olmaqla, bu mərkəzin rəhbər işçilərindən sayılan (şöbə müdiri) İlham Mikayılov və digərləri vətəndaşların haqlı müraciətini heçə sayaraq, ancaq rüşvət təklif edənlərə şərait yaradırlar. Hətta vəziyyət o yerdədir ki, İlham Mikayılov öz vəzifəsi ilə öyünür. "Mən imtahan verib bu vəzifəyə gəlmişəm" və s. kimi özündən razı cümlələrlə vətəndaşa öz elmindən, düşüncələrindən ağız dolusu bəhs edərək, "mənə heç kim heç nə edə bilməz" deyir.

Ola bilər ki, İlham Mikayılovun elmi yüksəkdir, ancaq bu o demək deyil ki, ciddi dərəcədə qanunsuzluq törədə, Abdulla Kərimovun pulyığanı ola bilər. Yəni İlham Mikayılov elə bilir ki, yüksək elmi onu xilas edəcək. Ancaq o, yiyələndiyi elmə "vətəndaşı incit, süründür, pul tələb et" anlayışlarını da əlavə edib. Bir sözlə, Şəki rayon Regional Məşğulluq Mərkəzinin şöbə müdiri İlham Mikayılovun avazı yaxşı gəlir, ancaq oxuduğu quran olsa.

Xahiş edirəm ki, bu korrupsionerlərin törətdiyi qanunsuzluqlar araşdırılsın və hüquq müstəvisində tədbir görülsün".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Baş prokurorun "yeznəsi" vətəndaşların pulunu mənimsəyib...

## "Arif də dedi ki, mən Süleyman İsmayılovun adamıyam, səni itirərik"

**Bakı şəhər sakini Əsgərov Tural Rizvan oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət daxil olub. Dələduzluqla üzləşdiyini deyən şikayətçi bildirir ki, 35 min manatını ələ keçirən Qazax rayon sakini, hazırda Bakı şəhərində yaşayan Elşən Əsgərov adlı vətəndaş, pulunu istədiyi üçün onu Baş prokuror Kamran Əliyevlə və "hakimiyyətdəki kürd qruplaşması" ilə təhdid edir.**



T.Əsgərovun sözlərinə görə, ona məxsus torpaq sahəsinə sənəd almaq məqsədi ilə, 25 min və 10 min olmaqla, E.Əsgərova 35 min manat



pul verib. Baş prokuror Kamran Əliyevlə yaxın qohum olduğunu, onunla tez-tez görüşdüyünü bildirən Elşən Əsgərov, K.Əliyevin dəstəyi ilə Tural Əsgərova məxsus torpaq sahəsinə sənəd alacağına söz verib. "Elşən Əsgərov dedi ki, Kamran Əlyev yaxın qohumumdur, mən onun bacısının həyat yoldaşıyam. Hətta onunla birgə şəklini də göstərdi", - deyən şikayətçinin sözlərinə görə, sonradan E.Əsgərovun dələduz olduğu məlum olub.

Belə ki, onun Kamran Əliyevlə birgə fotosunun baş prokuror Qazaxda vətəndaşları qəbul edən zaman çəkildiyi ortaya çıxıb(FOTO). Yəni həmin foto Elşən Əsgərov da, digər rayon sakinləri kimi, hansısa məsələ ilə bağlı K.Əliyevin qəbulunda olduğu zaman çəkilib və o, bundan istrifadə edərək özünü baş prokurorun qohumu kimi təqdim edərək, vətəndaşlara qarşı dələdzuluqla məşğul olub.

Tural Əsgərovun sözlərinə görə, E.Əsgərov eyni fırıldaqçılıq üsulu ilə başqa vətəndaşları da aldadıb ki, hazırda işi məhkəmədədir.

Şikayətçi bildirir ki, işini düzəltmədikdən sonra E.Əsgərovdan ona verdiyi 35 min manatı geri tələb edib və əks halda şikayət edəcəyini söyləyib. Bu zaman o, "sənin başına oyun açaram, mənim arxamda baş prokuror, hakimiyyətdəki kürd qruplaşması dayanır", - deyə onu təhdid etməyə başlayıb.

Yeri gəlmişkən, özünün "hakimiyyətdəki kürd qruplaşması"nın aparıcı simalarından biri və Prezidentin Təhlükəsizlik Xidmətinin rəisi Bəylər Eyyubovun qohumu kimi təqdim edən, Nizami rayonu Polis İdarəsinin keçiş rəisi İsmayıl Əsədovun qardaşı oğlu Edqar adlı şəxs də T.Əsgərova zəng vuraraq, "Elşəni biz dəstəkləyirik, ona vaxt ver, problemi yoluna qoyacaq", - deyə bildirib.

Tural Əsgərov deyir ki, daha sonra Elşən Əsgərovun Arif adlı dostu da zəng vuraraq onu təhdid edib: "Arif dedi ki, mən Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun adamıyam, prezidentə yazılan bütün məktublara o baxır, lazım olanı çatdırır, lazım olmayanı saxlayır. Sən şikayət etsən də, onsuz da sənin məktubun gedib prezidentə çatmayacaq".

Daha sonra isə, o, "Biz çox adamların başına oyun açmışıq. Səni də bu ölkədən itirərik", - deyə T.Əsgərova hədə-qorxu gəlib.

Haşiyə çıxaq ki, ölkə mətbuatında Prezident Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin




müdiri Süleyman İsmayılovla bağlı zaman-zaman bir sıra informasiyalar yayılıb. Belə ki, onun illərdir Naxçıvan sakinlərinin şikayətlərinin Prezident İlham Əliyevə çatdırılmasının qarşısını aldığı, hətta vaxtilə o məktubları Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbova göndərdiyi iddia olunur...

**Hazırladı: RƏŞAD**

***P.S. Mövzu ilə bağlı araşdırmamız davam edir. Elşən Əsgərovun dələduzluğu ilə üzləşən və dostu Arifin "başına oyun açdığı adamlar"ın da müraciətini yazdıa adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# "Fövqəlnazir"in adı hallanan kredit qalmaqalı

## Kəmaləddin Heydərovun şirkəti kredit borcunu ödəmir?

**Ləğv prosesində olan "Zaminbank"la "Elite International Management" MMC arasında kredit müqaviləsinə görə mübahisə yaranıb.**



Hurriyyet.az xəbər verir ki, bank şirkəti müqavilə öhdəliklərinə əməl etməməkdə günahlandırır. Mübahisə məhkəməyə qədər uzanıb. Lakin birinci instansiya bankın iddiasını təmin etməyib. İş hazırda apellyasiya mərhələsindədir. Bankın şikayəti Bakı Apellyasiya Məhkəməsində Raqib Qurbanovun sədrlik etdiyi hakimlər kollegiyası tərəfindən araşdıralacaq.

"Elite İntenrnational Managment" MMC fövqəladə hallar naziri Kəmaləddin Heydərovun şirkəti hesab edilir. Nazirin biznes strukturları ilə bağlı mediada dərc edilən araşdırma materiallarında da "Elite İnternational Managment" MMC-nin adına rast gəlinir. Şirkət əvvəl iş adamı Ali Evsenə məxsus "Elite Group"a daxil olub. Ali Evsen Qafqaz Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin qudasıdır.

Bir neçə il əvvəl isə yayılan məlumatlardan aydın olub ki, "Evsen Group" şirkətini Kəmaləddin Heydərov alıb. Bu fakt İspaniya məhkəməsinin sanskisyası əsasında "Evsen Group" şirkətinin bank hesablarının dondurulmasından sonra üzə çıxıb. Həmin vaxt məhkəməyə təqdim edilən sənədlərdən məlum olub ki, "Evsen Group" artıq Ali Evsenə məxsus deyil.

Bugünlərdə "Hürriyyət"in redaksiyasına müraciət edən Bakı şəhəri, Xətai rayonu, məhəllə 1197, Həsən Salmani, ev 1b, mənzil 75 ünvanında qeydiyyatda olan Bəhram Əlövsət oğlu Yolçuyev 2013-cü ildə mülkiyyətində olan əkinə yararlı təsərrüfat təyinatlı torpaq sahəsinin qanunsuz olaraq zəbt edildiyini, tanımadığı şəxslər tərəfindən mənimsənilərək fərdi yaşayış evinin inşa edildiyini bildirib.




# Vətəndaşın torpaq sahəsi Əmlak Məsələləri Dövlət Komitəsinin saxtakarlığı nəticəsində zəbt edilib

## Bəhram Yolçuyev: "Tanımadığım şəxslər mülkiyyətimdəki əkinə yararlı təsərrüfat təyinatlı torpaq sahəsini zəbt edərək fərdi yaşayış evi inşa ediblər"

### "Ali Məhkəmənin hakimləri barəmdə ədalətsiz qərar çıxarmaqla dövlət orqanlarının bu iş üzrə cinayətlərini, saxtakarlıqlarını, təsərrüfat təyinatlı torpaq sahəmin təyinatının qeyri-qanuni yolla dəyişdirilməklə qanunsuz yaşayış evləri inşa edilməsinə göz yummalarını ört-basdır etməyə çalışıb"

**Belə ki, pozulmuş hüquqlarının bərpası məqsədiylə müxtəlif tələblərlə aidiyyəti üzrə məhkəmələrə müraciət etdiyini vurğulayan Bəhram Yolçuyevin sözlərinə görə, Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsi ona məxsus olan torpaq sahəsinə başqa şəxslərin adlarına saxta sənəd verib:** "Mən Abşeron rayon 2 saylı dövlət notariat kontorunun 22.05.2007-ci il tarixli, 4ə-5-782 nömrəli "Alıcı və Satıcı arasında bağlanmış alqı-satqı müqaviləsi" ilə dövlət aktına əsasən Abşeron rayonu, Mehdiabad qəsəbəsində yerləşən sahəsi 0,673778 ha olan torpaq sahəsini əldə etmişəm. Alqı-satqıdan sonra keçmiş Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Abşeron rayon şöbəsinin əməkdaşları tərəfindən dövlət aktında qeyd olunan torpaq sahəsi akta və Mehdiabad qəsəbəsinin islahat xəritəsinə uyğun şəkildə naturada mənə təhvil verilib. Təxminən, 2014-cü ilin əvvəllərində tanımadığım şəxslər mülkiyyətimdəki əkinə yararlı təsərrüfat təyinatlı torpaq sahəsini zəbt edərək fərdi yaşayış evi inşa ediblər. Pozulmuş hüquqlarımın bərpası üçün müxtəlif tələblərlə aidiyyəti üzrə məhkəmələrə müraciət etmişəm. Məhkəmə araşdırmaları zamanı məlum olub ki, torpaq sahəmdən 2269 metr aralıda, Binəqədi-Novxanı yolunun kənarında yerləşən, Yaşar Məmməd İsgəndərov oğlu xüsusi mülkiyyətində olan 0,38 ha torpaq sahəsinin 0,28 hissəsini 13.02.2013-cü il tarixdə bağışlama müqaviləsi əsasında bacısı Sevil Məmməd qızı İsgəndərovaya bağışlayıb, həmin torpaq sahəsinə dair Sevilin adına çıxarış və plan ölçü sənədi verilib. Plan ölçü sənədi tərtib edilərkən Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsi tərəfindən saxtakarlığa yol verilərək, Sevilin adına tərtib olunmuş plan ölçü sənədində torpaq sahəsinin koordinatları, ölçüləri və konfiqurasiyası tamamilə fərqli şəkildə tərtib olunaraq mənim mülkiyyətimdə olan torpaq sahəsinə işlənib. Elə həmin dövrdə də mülkiyyətimdə olan və Sevilin adına işlənmiş 0,28 ha torpaq sahəsi 2-3 sot hissələrə bölünərək ayrı-ayrı şəxslərə satılıb və məhkəmə qərardadı ilə tikinti aparılmasının qadağan edilməsinə baxmayaraq, təsərrüfat təyinatlı torpaq sahəsində qanunsuz olaraq fərdi yaşayış evləri və yarımçıq tikililər inşa edilməklə torpaq sahəm yararsız hala salınıb".

**Şikayətçi iddia edir ki, onun torpaq sahəsinin plan ölçü sənədi də dövlət aktında göstərilən koordinatlardan kənara, yəni digər dövlət aktlarına əsasən qonşuların müliyyətində olan torpaq sahələrinin üzərinə işlənib:** "Onu da bildirim ki, tərəfimdən cavabdehlər Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı



Ərazi İdarəsinə, İsgəndərova Sevil Məmməd qızına, Babayev Nemət Asif oğluna, Piriyev Əbülfət Salah oğluna, Mustafayev Kamran Qasım oğluna, Səfərova Minəvər Şahvələd qızına, Orucov Əlövsət Həsən oğluna, Ağazadə Rəşad Fərhad oğluna, Fətullayev Xəzər Vaqif oğluna, Əkbərov Faiq Ramiz oğluna, Babayev Baba Ədalət oğluna, Məmmədov Sahib Şamil oğluna, Hüseynov Sənan Rafiq oğluna, maraqlı şəxslər Abşeron rayonu 1 və 2 saylı notariat kontorlarına qarşı "daşınmaz əmlakın alqı-satqı müqavilələrinin, çıxarışların və torpaq sahəsinin planı və ölçüsü sənədlərinin ləğv edilməsi, torpaq sahəsində cavabdehlər tərəfindən inşa edilmiş özbaşına tikililər cavabdehlərin vəsaiti hesabına sökülərək əvvəlki vəziyyətinin bərpa olunması və mülkiyyətimdə olan torpaq sahəsinin cavabdehlər tərəfindən boşaldılaraq mənə təhvil verilməsi tələbinə dair" iddiam Abşeron Rayon Məhkəməsinin 5 mart 2019-cu il tarixli qətnaməsi ilə təmin edilib. Bundan başqa, Sumqayıt Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 27 dekabr 2019-cu il tarixli qətnaməsi ilə həmin qətnamədən cavabdehlər tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilərək, Abşeron Rayon Məhkəməsinin qeyd etdiyim qətnaməsi ləğv edilib və iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə qəbul edilib. Ali Məhkəmənin Mülki Kollegiyasının 28.07.2020-ci il tarixli qərarıyla isə cavabdeh Babayev Nemət Asif oğlunun kassasiya şikayəti qismən təmin edilib, Sumqayıt Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 27 dekabr 2019-cu il tarixli qətnaməsi kassatorun mübahisələndirdiyi hissədə (İsgəndərova Sevil Məmməd qızının adına verilmiş çıxarışın etibarsız hesab olunması, onun Babayev Nemət Asif oğluna satmış olduğu torpaq sahəsinə dair əqdin etibarsızlığı və həmin torpağa dair sonradan həyata keçirilmiş əqdlərin və çıxarışların etibarsızlığı, həmin torpaq sahəsində inşa edilmiş tikililərin sökülməsi, əvvəlki vəziyyətə bərpa edilməsi, torpaq sahəsinin boşaldılaraq iddiaçıya təhvil verilməsi hissəsində) ləğv edilib və işə həmin hissədə apellyasiya qaydasında yenidən baxılması üçün həmin məhkəməyə qaytarılması qərara alınıb. Sumqayıt Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 23.09.2020-ci il tarixli qərardadı ilə cavabdehlərin apellyasiya şikayətləri qismən təmin edilib, Abşeron Rayon Məhkəməsinin 5 mart 2019-cu il tarixli qətnaməsi qismən ləğv edilib".

Nəzərinizə çatdıraq ki, bundan sonra Bəhram Yolçuyev Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsi tərəfindən İsgəndərova Sevil Məmməd qızının adına verilmiş 18 fevral 2013-cü il tarixli 0144613 saylı çıxarışın və buna müvafiq olaraq 16.02.2013-cü ildə tərtib edilmiş 3080130046544 saylı reyestr nömrəli "torpaq sahəsinin plan və ölçü" sənədinin ləğv edilməsi tələbi ilə Sumqayıt İnzibati Məhkəməsinə müraciət edib: **"Sumqayıt İnzibati Məhkəməsinin 2 aprel 2021-ci il tarixli qərardadı ilə Babayev Baba Ədalət oğlu, Orucov Əlövsət Həsən oğlu, Babayev Nemət Asif oğlu, Fətullayev Xəzər Vaqif oğlu, Ağazadə Rəşad Fərhad oğlu, Əkbərov Faiq Ramiz oğlu, Abdullayeva Afaq Əziz qızı, Hüseynov Sənan Rafiq oğlu, Məmmədov Sahib Şamil oğlu və Zeynalov Samir Süreddin oğlu iş üzrə üçüncü şəxslər qismində məhkəmə icraatına cəlb edilib. Onu da qeyd edim ki, həmin məhkəmənin 13.04.2022-ci il tarixli qərarı ilə Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsi tərəfindən İsgəndərova Sevil Məmməd qızının adına verilmiş çıxarış və "torpaq sahəsinin plan və ölçü" sənədi ləğv edilib. Lakin Ali Məhkəmənin 06.05.2022-ci tarixli qərarı ilə cavabdehlərin kassasiya şikayəti təmin edilərək, Sumqayıt Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 14 dekabr 2021-ci il tarixli qərarı ləğv edilib və iddiam mümkün sayılmayıb. Həmin qərarda iddiamın mümkünsüzlüyü əsaslandırılmayıb, Sumqayıt İnzibati Məhkəməsinin 2-1(085)-21/2019 saylı qərarı nəzərə alınmayıb.** Halbuki, həmin qərarla mübahisəli yerin dövlət aktına əsasən ərazisinin yerquruluşu (bölgü) layihəsinə mənə məxsus olması öz təsdiqini tapıb, bu səbəbdən də mülkiyyətimdə olan torpaq sahəsinin mərz nişanlarının qoyulması, qonşu torpaq mülkiyyətçilərinin adları göstərilməklə naturada mənə tanıdılması öhdəliyi Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsinə həvalə edilib. Həmin qərar qanuni qüvvəsini alsa da, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsinin əməkdaşları tərəfindən bu günədək icra olunmur".

**Şikayətçinin sözlərinə görə, Ali Məhkəmənin hakimləri barəsində ədalətsiz qərar çıxarmaqla dövlət orqanlarının bu iş üzrə cinayətlərini, saxtakarlıqlarını, onun təsərrüfat təyinatlı torpaq sahəsinin təyinatının qeyri-qanuni yolla dəyişdirilməklə qanunsuz yaşayış evləri inşa edilməsinə göz yummalarını ört-basdır etməyə çalışıb: "Bu səbəbdən də "Hürriyyət" qəzeti vasitəsi ilə müvafiq qurumlara müraciət edərək, xahiş edirəm ki, ədalətsizliyə yol vermiş, məni 10 ildən artıq müddət ərzində məhkəmələrdə süründürən hakimlər və reyestr xidmətinin qanunsuzluğa yol vermiş işçiləri barəsində ciddi tədbir görülməsində və mülkiyyət hüququmun bərpa olunmasında köməklik göstərsinlər. Həmçinin, Sumqayıt İnzibati Məhkəməsinin 2-1(085)-21/2019 saylı qərarı ilə yerquruluşu (bölgü) layihəsinə əsasən və 25.06.2007-ci il tarixli seriya MH**



Azərbaycan Respublikası Prezident İlham Əliyev Cənablarına

Bakı şəhəri, Xətai rayonu, Məhəllə 1197, Həsən Salmani, ev 1b, mənzil 75 ünvanında qeydiyyatda olan

Yolçuyev Bəhram Əlövsət oğlu tərəfindən

Tel: 050 353-23-66

ŞİKAYƏT ƏRİZƏSİ

Bildirirəm ki, tərəfimdən cavabdehlər Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsinə, İsgəndərova Sevil Məmməd qızına, Babayev Nemət Asif oğluna, Piriyev Əbülfət Salah oğluna, Mustafayev Kamran Qasım oğluna, Səfərova Minəvər Şahvələd qızına, Orucov Əlövsət Həsən oğluna, Ağa-zadə Rəşad Fərhad oğluna, Fətullayev Xəzər Vaqif oğluna, Əkbərov Faiq Ramiz oğluna, Babayev Baba Ədalət oğluna, Məmmədov Sahib Şamil oğluna, Hüseynov Sənan Raqif oğluna, maraqlı şəxslər Abşeron rayonu 1 saylı Notariat Kontoruna və Abşeron rayonu 2 saylı Notariat Kontoruna qarşı "daşınmaz əmlakın alqı-satqı müqavilələrinin, çıxarışların və Torpaq sahəsinin planı və ölçüsü sənədlərinin ləğv edilməsi, torpaq sahəsində cavabdehlər tərəfindən inşa edilmiş özbaşına tikililər cavabdehlərin vəsaiti hesabına sökülərək əvvəlki vəziyyətinin bərpa olunması və mülkiyyətimdə olan torpaq sahəsinin cavabdehlər tərəfindən boşaldılaraq mənə təhvil verilməsi tələbinə dair" iddiam Abşeron Rayon Məhkəməsinin 2(012)-350/2019 saylı 05 mart 2019-cu il tarixli qətnaməsi ilə (hakim Cəmilə Səfiyeva) təmin edilmişdir.

Sumqayıt Apelyasiya Məhkəməsi Mülki Kollegiyasının 27 dekabr 2019-cu il tarixli, 2(105)-2895Ə/2019 saylı qətnaməsi ilə həmin qətnamədən cavabdehlər tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilərək, Abşeron Rayon Məhkəməsinin 2(012)-350/2019 saylı 05 mart 2019-cu il tarixli qətnaməsi (sədrlik edən və məruzəçi hakim Səyyad Qafari) ləğv edilmiş və iddia tələbinin təmin edilməsi barədə yeni qətnamə qəbul edilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının (sədrlik edən və məruzəçi hakim İsmayıl Xəlilov) 28.07.2020-ci il tarixli, 2(102)-3433/2020 saylı qərarı ilə cavabdeh Babayev Nemət Asif oğlunun kassasiya şikayəti qismən təmin edilib, Sumqayıt Apelyasiya Məhkəməsi Mülki Kollegiyasının 27 dekabr 2019-cu il tarixli qətnaməsi kassatorun mübahisələndirdiyi hissədə (İsgəndərova Sevil Məmməd qızının adına verilmiş çıxarışın etibarsız hesab olunması, onun Babayev Nemət Asif oğluna satmış olduğu torpaq sahəsinə dair əqdin etibarsızlığı və həmin torpağa dair sonradan həyata keçirilmiş əqdlərin və çıxarışların etibarsızlığı, həmin torpaq sahəsində inşa edilmiş tikililərin sökülməsi, əvvəlki vəziyyətə bərpa edilməsi, torpaq sahəsinin boşaldılaraq iddiaçıya təhvil verilməsi hissəsində) ləğv edilmiş və işə həmin hissədə apelyasiya qaydasında yenidən baxılması üçün həmin məhkəməyə qaytarılması qərara alınmışdır.

Sumqayıt Apelyasiya Məhkəməsi Mülki Kollegiyasının (sədrlik edən və məruzəçi hakim Telman Osman oğlu Quliyev) 2(105)-2577/2020 saylı, 23.09.2020-ci il tarixli qərardadı ilə cavabdehlərin apelyasiya şikayətləri qismən təmin edilmiş, Abşeron Rayon Məhkəməsinin 05 mart 2019-cu il tarixli, 2(012)-350/2019 saylı qətnaməsi qismən «İsgəndərova Sevil Məmməd



ŞƏHƏR (RAYON) SAYLI
(DÖVLƏT) NOTARİAT KONTORU

ƏSLİ İLƏ DÜZDÜR

İŞ №

Cildlərin Sayı: Cild №

İşin nomenklatur üzrə aid olduğu bəndin şərti №-si

(işin məzmunu)

Başlanıb: « » ildə
Qurtarıb: « » ildə
vərəqlərin sayı

**0011477 saylı çıxarışa uyğun olaraq mülkiyyətimdə olan 0,673778 ha torpaq sahəsinin mərz nişanlarının qoyulması, qonşu torpaq mülkiyyətçilərinin adları göstərilməklə naturada mənə tanıdılması öhdəliyinin cavabdeh Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Ərazi İdarəsinin üzərinə həvalə edilməsi barədə qərarının da bu günə kimi icra edilməməsini nəzərə alaraq, həmin qərarın da icra edilməsinə köməklik göstərsinlər".**

**"Hürriyyət"**

# Şəhidlik zirvəsinə ucalan Elməddin

**Elməddin Anar oğlu Məmmədov İkinci Qarabağ müharibəsində Vətən, torpaq uğrunda şüurlu surətdə canından keçərək şəhidlik zirvəsinə ucaldı. Bu şərəflə də ömrünün 20-ci ilində əbədi olaraq özünə ürəklərdə yuva qurdu. İndi təkcə doğulub boya-başa çatdığı Lənkəran rayonunun Velədi kəndində deyil, bütün Azərbaycan xalqı öz qəhrəman oğlu ilə fəxr edir. Qərinələr keçəcək, gələcək nəsillər də Elməddinin Vətən sevgisindən nümunə götürəcək.**



Şəhid Elmaddin Anar oğlu
Lənkəran (Velədi kəndi)

Qəlbi Vətənə sevdalanan, onun torpağını, daşını canından əziz bilən Elməddin Məmmədov orta məktəbi bitirib ordu sıralarına erməni dığalardan qisas almaq məqsədilə yollanır. Cəbhə bölgəsinə düşən Elməddin doğma Azərbaycana qeyrətlə, vicdanla xidmət edir. Vətənə qəlbində bəslədiyi məhəbbət hissi ona həmişə uğur gətirir. Təlimlər zamanı göstərdiyi əla döyüşçü keyfiyyətləri bütün əsgərlərə nümunə olur. And içir ki, lazımı məqamda hər qarış torpaq uğrunda döyüş meydanında erməni faşistlərinə qarşı amansız olacaqdır. Həmişə də əsgər yoldaşlarına dedikləri belə olur:- Xalqımız Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirib. İndi düşmən qarşısında aciz qalmaq bizə yaraşmır. Qarabağımız öz mərd oğullarının yolunu gözləyir. Şəhid qanı axmayan torpaq Vətən olmaz...

Günlər ötdükcə Elməddinin qəlbində yağı düşmənə intiqam, qisas almaq alovu get-gedə güclənir. 2020-ci il sentyabrın 27-də Azərbaycanın, eləcə dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan İkinci Qarabağ müharibəsi başlanan kimi Elməddin torpaq uğrunda gözünü qırpmadan, ölümün gözünə dik baxabaxa döyüş meydanına girir və polad sinəsini irəli verib düşmən üstünə qartal tək şığıyır. Füzulunun azadlığı uğrunda sözün əsl mənasında tarix yazır. Bir-birindən ağır müharibə meydanlarında döyüş igidliyinə görə fərqlənir. Son döyüş yerində də düşmənin xeyli sayda canlı qüvvəsini məhv edir, əks tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olur.

Bəli, Vətənə məhəbbətdən yaranan bu ölüm Elməddin Məmmədova ürəklərdə əzəmətli abidə ucaltmaqla, həm də ölkə başçısının verdiyi müvafiq sərəncamları əsasında "Vətən uğrunda", Cəbrayılın və Füzulinin azadlığına görə, "Cəsur döyüşçü" medallarına layiq görülür. İkinci tərəfdən lənkəranlılar hər an öz qəhrəman oğlunu ehtiramla xatırlayır, onun adına layiqli işlər görürlər. Burada onun adına küçə, xatirə bulağı vardır.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Aqronom ingilis dili dərsi keçir, xadimə sinif rəhbəri olub...

## Gəncə şəhəri, İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbin müəllimi şok faktları açıqladı



### Elvira Zeynalova: "Məmmədova Nüşabə Zakir qızı müvəqqəti müdir kimi təyin olunmazdan bir neçə gün öncə Elim və Təhsil nazirinin Daxili Nəzarət Şöbəsi tərəfindən siddətli töhmət almışdı"

**Gəncə şəhər sakini Zeynalova Elvira Oruc qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. İsmət Qayıbov adına 1 saylı tam orta məktəbdə İngilis dili müəllimi kimi fəaliyyət göstərən E.Zeynalovanın məktubunu olduğu kimi oxuculara təqdim edirik:**

"Təhsil ocağı, əsasən də orta məktəbə əbəs yerə təlim-tərbiyə ocağı demirlər. Bəllidir ki, orta məktəbdə keçirilən təlim prosesinin müvəffəqiyyətlə başa çatması gənc nəslin gələcəkdə layiqincə formalaşmasına gətirib çıxarır. Beləliklə, qısaca olaraq deyə bilərik ki, orta məktəbdə keçirilən təlim-tərbiyə prosesinin sonunda gələcəyimizin qarantı olan gənc nəslin yetişdirilməsinə, formalaşmasına gəlib çıxmış sayılırıq. Bir sözlə, orta məktəbdə gənc nəslin gələcək həyatda vətəndaş olaraq formalaşmasının təməl daşı qoyulur.

Mən, Zeynalova Elvira Oruc qızı da, 15.0.2004-cü ildən Gəncə şəhəri İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbdə ingilis dili müəllimi kimi çalışıram. Az öncə qeyd etdiyim kimi, məktəb təlim-tərbiyə ocağıdır, ancaq mən işləməyə başladıqdan az sonra daxildə nələrin baş verdiyini gördüm. O zamanlar da qanun pozuntuları var idi. İndi də 9, 10, 11-ci sinif şagirdləri məktəbə gəlmir (artıq bu bütün məktəblər üçün adı hala çevrilib), mən şagirdlərin dərsə davamiyyətini sinif rəhbərlərindən, rəhbərlikdən tələb etdikcə valideynlərlə rəhbərlik anlaşma qurub məni onlarla üz-üzə qoyurdular. Hətta rus bölməsində işləməyimmə baxmayaraq, müəllimlər otağında Azərbaycan bölməsinin direktor müavini Zenfira Sülüymanova tərəfindən döyülmüşəm də. Eyni zamanda, dərs davamiyyəti tələb edərkən dəfələrlə tənqidlərə məruz qalmışam. Bu hadisələr atamın şəkər xəstələri üçün nəzərdə tutulan xəstəxanada yatdığı zamana təsadüf edir. Mən ailədə yeganə qız övladı olduğum üçün atamın qayğısına qalmalı olurdum. Döyülmə baş verən günsə xəstəxanadan birbaşa məktəbə gəlməli oldum, dərsə 5 dəqiqə gecikməm buna bəhanə oldu.

Xatırladığım məqamlardan bir müddət keçdi və çalışdığım məktəbin müdiri dəyişdi. Ancaq bu dəfə də məktəbin bəxti heç gətirmədi. Belə ki, məktəbə təyin olunan Mətanət Qarayeva nəinki qanun pozuntularını aradan qaldırmadı, əksinə, qanun pozuntularını davam etdirdi, özü də necə. Belə ki, diplomu saxta olanlar işə qəbul edildi, Kənd Təsərrüfatı İnstitunun aqronomluq fakultəsini bitirən ingilis dili dərsi, Texnologiya Universitetini bitirən musiqi dərsi deməyə başladı. Bir sözlə, Mətanət Qarayeva peşəsi ilə diplomu uyğun gəlməyən müəllimlərə yetərincə dərs verdiyi halda, ixtisaşçılar kənarda qalırdı. Məktəbə xadimə, kargüzar kimi götürdüyü işçilər sinf rəhbəri olmaqla bərabər, üstəlik siniflərdə dərs deyirdi.

Pedaqoqika və pisixologiyadan anadam tapmırsan. Bəs, hanı ölkə başçısının bu şəhərdə, yerlərdə tapşırığını yerinə yetirən məmur? Bu gün təhsil sahəsindəki özbaşınalıqlar ayaq tutub yeriyir, baxan, tədbir görən yoxdur.

Ötən ilin, yəni 2022-ci ilin iyun ayının 21-də Mətanət Qarayeva dərman içərək özünü öldürmək istədi. Düşünürəm ki, bir məktəb müdirinin dərman içməsi onun psixoloji durumunun yerində olmamasından xəbər verir və ya nədənləri olub. Hadisənin baş verməsi isə məktəbdə təhsil alan şagirdlər üçün heç də yaxşı örnək deyildi.

21.10.2022-ci il tarixdə Mətanət Qarayeva vəzifəsində etdiyi nöqşanlara



layışı olmayan insanlara necə sinif rəhbərliyi həvalə etmək olar? Sərhəd keçmiş müəllimə necə maaş yazmaq olar? Ən maraqlısı da budur ki, Mətanət Qarayeva bütün bunları Təhsil İdarəsinin kecmiş müdiri Zakir Hüseynovun vaxtında başlayıb və Anar Qədiməliyevin vaxtında davam etdirib. Onda ortaya sual cıxır: Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev müəllimlərin dərs bölgüsünə nəzarət edir, ya yox? Nədən Anar Qədiməliyev bu müddət ərzində bunlara göz yumub? Nədən Təhsil İdarəsinin Maliyyə şöbəsi bu qanunsuzluqlara göz yumub və saxta maaşlar yazılıb? Tutaq ki, direktor qanunsuz olaraq dərs yükünü kimə gəldi döşəyib yazır, bəs mühasib hara baxır?!

Bu gün bizə ölkə başçısının yerlərdə tapşırıqlarını layiqincə yerinə yetirən rəhbər işçilər gərəkdir. Hansı ki, onu bu gün görə bilmirik. Nəyə görə belə dedim? Ona görə ki, Ulu Öndərə sevgi və sayqımızı göstərmək üçün keçirmək istədiyimiz tədbirə 1500 manat istənilir, bununla bağlı şəhərdə söz deməyə görə işdən azad edildi və hazırda bununla bağlı Gəncə şəhər Prokrorluğunda araşdırma gedir.

M.Qarayevanın yerinə müvəqqəti müdir təyin edilsə də, İ.Qayıbov adına 1 npmrəli tam orta məktəbin bəxti gətirmədi. Növbəti əvəzedici müdir kim oldu: Anar Qədiməliyevin əmisi nəvəsinin qaynanası. Hansı ki, o, yəni təlim-tərbiyə üzrə direktor müavini Məmmədova Nüşabə Zakir qızı müvəqqəti müdir kimi təyin olunmazdan bir neçə gün öncə Elim və Təhsil nazirinin Daxili Nəzarət Şöbəsi tərəfindən siddətli töhmət almışdı. Yeri gəlmişkən, Nüşabə Məmmədova həm də İ.Qayıbov adına orta məktəbin sabiq direktoru Məmmədov Müsəddinin gəlinidir. Beləliklə, Anar Qədiməliyev Nüşabə Məmmədovanın çoxdankı arzusunu həyata keçirmiş oldu.

Dəyişən nəsə yoxdu, yenə də aqronom ingilis dili, baytar, texnoloq isə musiqi dərsi deyir, MİQ-dən keçən müəllimlərsə iş axtarır".

*(Ardı var)*

**Hazırladı: Jalə FAMİLQIZI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

## “2023-cü il Heydər Əliyev ilidir”



Allahverdi EMİNOV

# Zor bir iş...

**Xatırlayırıq - xatırlanacağıq. Dünyanın həqiqətidir. Bu kainat Allahdan yaranıbsa, onun aqil insanları tərəfindən davam etməlidir, ta Allaha qədər ucalmalıdır. Bəli, zor işdir bu: ona görə ki, ucalığa elə o İlahinin xəlq etdiyi Adəm övladları mane olurlar, əngəllər törədirlər. nə yaxşı, elə O Allah da kimsənimi, kimsələrinmi, şəxsinmi, şəxslərinmi dilinə söz gətirir bütün həqiqətilə. Amma bu da bir taledir: canlı şahid hər şeyi danışır, söyləyir, təəssüf ki susur...**

Mən də təxminən belə bir hiss keçirmişdim və özüm “zor” işdən, daha doğrusu, dahi şəxsiyyətin məsuliyyətindən ehtiyatlanırdım. Əlbəttə, bu “ehtiyatda” etik normaları unutmamışdım. Onu da başım üstdə saxlamışdım ki, zor işdir. Və belə bir düşüncələr aləmində gözəl şairimiz Zeynal Xəlilin Səməd Vurğuna həsr etdiyi şeirdən bəzi misraları xatırladım:

*Dedim şeir yazım ona...*
*Sonra gördüm mən, doğrusu,*
*Yamanca zor işdir bu!*
*Atdım həmən bir kənara*
*İnad şair surətini...*

Mən heç bir dəyəri “uzağa” atmıram. Ona görə ki, o “dəyər” tale qismətidir, bəxtinə gələn bir varlıqdır, qonaq da olar, əbədi də. Amma insanın canında “nəsə” varsa - qonağa yox, daimiyyətə üz tutmalıdır və onu öz könül aləminə səsləməlidir. Həqiqətdir bu. Fransız yazıçısı deyirdi: “Sevmədiyinə belə, heyran olmağı bacarmaq lazımdır”. Təəssüf ki, biz çox-çox hallarda sevdiklərimiz haqqında ya demək istəmirik, ya tənbəlləşirik, ya da cəsarət göstərmirik. Mən “üçüncü”yə təslim oldum. Nə üçün? Əgər mən zaman daxilində bir şəxsiyyət haqqında olanları, həqiqətləri və yalnız mənə “bəlliləri” danışmağa, yazmağa “vaxt istədimsə...” xeyli düşünmək məcburiyyətində qaldım... İllər isə gözləmir, hey baş alıb gedir. Bu həqiqətdir və bu nisbi həyatdan lazımi qədər də faydalanmalıyıq. Lakin bəşər nəsli geriyə yox, irəliyə baxır, köhnəni unutmur, təzəni qəbul edirsə qoruyur. Əgər daxilində bir boşluq, bədbinlik baş qaldırıbsa, yalnız yaşamaq və mübarizə aparmaq haqqında düşünməlisən, azadlığını qazanmalısan. Böyük yazıçı Alber Kamyu yazır ki, absurd dünyada doğulmuş insanların yeganə həqiqi funksiyası yaşamaq və öz həyatını, etirazını, azadlığını dərk etməkdir, ölümü insan dilemmasının yeganə həlli hesab etmək - yalnış yolla getmək deməkdir, düzgün yol - həyata, günəşə aparan yoldur.

Qanı damarlarda donduran soyuqdan fasiləsiz əzab çəkmək olmaz. Bu fikirdə - insan varlığının fəaliyyəti istiqamətini müəyyənləşdirən praqnozlarda bir yaşam ümidi vardır. Mənim aləmimdə insanı əbədi problemlər düşündərməlidir və bu proseslərin içərisindən cəmiyyətin keçmiş və müasir strukturu özünü göstərəcək və bəlkə də ətrafındakıların ağlına gəlməz ki, 20 yaşlarında bir gənc zabiti sonralar məhz yaşadığı ideoloji və bioloji mühitin xoşbəxtlikləri və rəzalətləri onu ciddi maraqlandıracaqdır; birinci tərəfin reallaşması fəlsəfəsini axtaracaqdır. Cəmiyyətin emosiyaları insanlara olan bədxah şəfqəti fonunda haqqı tapdalanmışların mərhəmətini qazanmaq uğrunda mübarizələrdə sakitləşəcəkdir. Onun içərisində adamlara qarşı ümidsizlik yox idi, laqeydlikdən xoşu gəlmirdi, əvəzində isə insanlar azad, sərbəst yaşamağa alışsın. Bu şəxs Heydər Əlirza oğlu Əliyev idi. Naxçıvan şəhərində çalışan və ağır qayğılarını zabitəli görümündə və intellektində daşıyan bir insan.

Gənclik illərində hissiyyat güclü olur və o şəxs özünə lazımlı olanı götürür, ruhi sakitlik qazanır. O, ilk illərdən onu tanıyanlarda belə bir təəssürat yaratmışdı ki, insanlar təbii maraqlarının saxtalığına, kraxmallı köynəklərin xışıltısına, zaman dəhlizlərinin qəhqəhəsinə dözmək istəmir. Mən çox-çox illərdən sonra təəssüflənirəm ki, nə üçün Heydər Əliyevin bioqrafı olmamışdır? Əlbəttə, Azərbaycanın ziyalıları, dövlət xadimləri, sənət adamları bioqraf müşahidəsindən uzaq düşmüşdür. Əgər bu olsa idi, bioqraf Heydər Əliyevin şəxsi və ictimai mövqeyinə cəsarət göstərərdimi?! Heydər Əliyev dünyanı bütöv görürdü və onun qara - bozumtul torpağını, mavi dənizini, ağ qarını, pəmbə buludlarını seçirdi və zövq alırdı. Məntiqi - fəlsəfi idrak bəzən çevik şəkildə bədii düşüncəyə meyl edir, sənətin mənəviyyatsızlığa yönümünü iddia etmir - bütün bunlar onun daxilində gedirdi. Və iddiası o idi: həqiqətə çatmaqdı. Həqiqətin əzabı axtarışlarına intuitiv yolla gəlmədi. Mən vaxtilə dahi Lev Tolstoy haqqında oxuyanda belə bir fikirlə tanış olmuşdum: Adi düzlük deyil, ölməz həqiqət - sadəcə düzlük olmayıb, bütün dünyanı nurlandıran həqiqət işığıdır. O, Heydər Əliyev gənc yaşlarında şüurunda, idarəetmə təxəyyülündə və qeyri-adi müşahidəsində cəmiyyətdə həqiqətin, ədalətin bərqərarlığı prinsipini özünə aşina seçmişdir.




Heydər Əliyevdə siyasi - sosial şüur fərdiləşməmişdir, birtərəfli olmamışdır; həyatın, konkret cəmiyyətin bədii - sosial qavrayışı sxemlərini mənimsəmişdir. İnsanların cəmiyyətdə yaşama hüququnu yalnız həqiqət bərqərar edir və buna görə də həqiqətə doğru estetik duyğu ilə, amma solğun dekorasiya ilə yox.

Mən artıq qətiləşdirmişdim ki, 70-ci illərdən Heydər Əliyevi mənəviyyat məsələləri xeyli düşündürür, onu əbədi və bəşəri proseslərin mahiyyətinə doğru aparır. İnsanların xəyanətini bağışlamaq istəmir, elə adamlar var ki, xəyanətini ətrafından məharətlə gizlətməyi bacarır. Bu fikri təsadüfi demirəm. İnsanları başa düşmək o qədər də asan deyil, hətta yanındakını xəyanət simvolunda götürür, zənnimcə beləsi özünün günahı üçün zamanından kənar, əbədi əxlaq qanunları ilə heç bir ümumilik yaratmayan şərtlikləri kimi, çox nisbi olan sosial davranışa riayət etməməsi ucbatından cəzalandırılmışdır. Heydər Əliyev bir ictimai - siyasi və dövlət xadimi kimi bu prinsiplərə doğru getdi və Azərbaycan üçün onu reallaşdırdı.

Cəsarətlə deyərdim ki, Heydər Əliyev o qədər zəngindir, onun üçün “ideal” anlayışı fərdi məna daşımırdı, yəni yox idi. İlk baxışda, nöqteyi - nəzərdə onun belə mövqeyi bəlkə də kimlərəsə çatmırdı, bir az da razılaşmırdılar. Lakin sonralar Heydər Əliyevin haqlı olduğu qətiləşdirildi. Başladım məşhur filosof Karl Yaspersi mütaliyəyə. U.Kanta da laqeyd qalmadım: Ümumiyyətlə, ideal qeyri-müəyyən səviyyəyə qədər - insandakı insanlığa nisbətən nəsə daha böyük, yaxud qeyri - insan olan “dahilər” qədər yüksələ bilir, fərdi düşüncəmiz prizmasında belə yollar qeyri - səmimi səslənir. Filosof Kant daha sadə izahını vermişdir: “Lakin idealı misalda, başqa sözlə, müdrik romanda gerçəkləşdirmək cəhdləri mənasızdır, az təsirlidir, çünki ideya kamilliyini daima pozan təbii sərvətlər belə cəhdlərdəki hər hansı bir illüziyanın mümkünsüzlüyünü istisna edir və bununla da ideyadakı xeyirxahlığı hətta şübhəli və sadə uydurma kimi edir”. Heydər Əliyev əksinə, “ideyanı” qəbul edirdi, çünki “ideal” ideya ilə müqayisədə başqa məfhumdur. Yəni insan idealı yoxdursa, insan ideyası mövcuddur. İdeal dağılır, ideya irəli aparır. İdeallar bu yanaşmada ideyaların sxemi rolunu oynaya bilir. Mən K.Yaspersə qayıdıram: İnsanın idealı mümkünsüzdür, ona görə ki, insan sona çatmaqda gücsüzdür. Bu isə mühüm fəlsəfi nəticələrə əsas verir: 1) İnsanın əsil dəyəri onun yaxınlaşdığı cinsdə, yaxud tipdə deyil, əvəz oluna bilməyən, qarışdırılmayan tarixən vahid isandır. İnsanın fərd kimi dəyəri o zaman toxunulmaz olacaqdır ki, konkret insanlara ümumi ölçülərlə formalaşma üçün əvəz edilən material gözündə baxılmayacaq. 2) Bütün insanların bərabərliyi ideyası tamamilə yanlışdır. Çünki söhbət varlıqların psixoloji tədqiqatı mümkün olan səciyyədə insanların xarakterindən və qabiliyyətindən gedir. Lakin insan ən yaxşı halda qanun qarşısında bərabər insanlara və hüquqlara malik ictimai qanun - qayda reallığı kimi yanlışdır.

Bu məqamda - cümləni bitirəndə bir şeyə heyifsiləndim ki, 70-80-ci illərdə Yasperslə tanış deyildim, filosofla mübahisəyə, qiyabi olaraq sadə tərzdə polemikaya girərdim və çox şeyi öyrənərdim. Amma buna ehtiyac qalmadı. Azərbaycanda gedən siyasi - sosial və mənəvi - əxlaqi islahatlar - dəyişikliklərdən kəsdirdim ki, Heydər Əlirza oğlu dövlətçilik praktikasında “fərdi idealı” qəbul etməkdə haqlı idi, bir də ona görə ki, bütöv, dərin dünyagörüşlü, geniş mütaliəçi, cəsarətli, prinsipial və sair keyfiyyətləri özündə birləşdirmişdi. Və buna onun qeyri-adi yaddaşı da əsas vermişdi. Ona görə də Heydər Əliyev konsepsiyasında bütün insanların əsas bərabərliyi elə bir dərinlikdədir ki, azadlığa əsaslanaraq hər bir adam üçün mənəvi həyat vasitəsilə Tanrıya doğru yol açılır. Heydər Əliyevin dövlətçiliyi sosial proqnozlaşdırma səriştəsi, bərabərliyin mütləqliyi və sair görüntüləri mənə imkan yaradır ki, deyəm: hər bir insana hörmət olunması ona yalnız bir vasitə kimi baxmağa icazə vermir, insana özünüməqsəd kimi münasibət göstərməyi tələb edir. Bir həqiqətdir ki, Heydər Əliyev əminliyin eqoizmlə birləşməsinə mənfi baxırdı və bunu insanın özü üçün təhlükəli hesab edirdi.

Mənim üçün Heydər Əlirza oğlunun insan və azadlıq məfhumlarını bir-birindən ayırmamaq məntiqinin real sxemini görmək çətin deyildi. “Kənardan gəlmə”yə, “nisbi həqiqət”ə inamından boyun qaçırırdı, çünki ətrafından güclü idi. İnsan fəlsəfəsini, insan psixologiyasını dərinliyinəcən mənimsəmişdi və “insanın öz azadlığından eksiztensiya kimi transsendensiya neməti görməsi”ni qəbul edirdi. Belə olanda insan varlığının azadlığa transsendensiyasının, vahidin rəhbərliyilə onun bütünn imkanlarının özəyinə çevrilir və insan öz şəxsi birliyini bərqərarlaşdırır. Məhz K.Yaspers də bu fikirdə olmuşdur ki, konkret rəhbərlik dünyadakı hər hansı bir rəhbərlikdən köklü halda fərqlənir, çünki o, obyektiv olaraq birmənalı deyil: o, insanın tam quruluşu ilə üst-üstə düşür, yalnız şəxsi əqidə azadlığı ilə gerçəkləşdirilir.

*(Ardı var)*

# Sabiq deputatın qardaşı vətəndaşın evini zəbt edib

## Binəqədi sakini Aysel Əliyeva: "Vüqar Qasımova məxsus olan "Vialon" MMC tikinti şirkəti bizim haqqımızı qəsb etməkdədir"

**Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mikrorayon, ev 28a, mənzil 3-də yaşayan Əliyeva Aysel İlqar qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə ölkə başçısına müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Cənab Prezident!

Yazaraq bildirmək istəyirəm ki, Milli Məclisin sabiq deputatı Əsabil Qasımovun qardaşı Vüqar Qasımova məxsus olan "Vialon" MMC tikinti şirkəti bizim haqqımızı qəsb etməkdədir. Belə ki, anam Əliyeva Natiqə Məmmədağa qızı Nəsimi rayonu Cəlil Məmmədquluzadə küçəsi, dalan 2, ev 2 ünvanında xüsusi mülkiyyət olan daşınmaz əmlak üzərində 2/6 (40.7kv) paya sahibdir. Mərhum babam həmin mülkdə doğulub boya-başa çatmış və yaşamışdır. Lakin bir neçə il öncə yaşayış olmadığına görə, evin bir otağı uçub-dağılıb. Maddi imkanımız yox idi deyə xeyli müddət burada təmir-abadlıq işləri apara bilmədik. Nəhayət, evin bərpası üçün gəldiyimiz zaman bizə məxsus olan otağın bir hissəsində qonşumuz tərəfindən tikinti işləri aparıldığını və təxminən 4-5 kv metr yeri qanunsuz şəkildə özününküləşdirməyə çalışdığının şahidi olduq.

Qanunsuz tikinti ilə bağlı dərhal aidiyyəti qurumlara, o cümlədən də Nəsimi Rayon İcra Hakimiyyətinə məlumat verdik. Lakin şikayətimiz təmin edilmədi. Həmin dövrdə pandemiya ilə əlaqədar olaraq ölkəmizdə müəyyən məhdudiyyətlər tətbiq olunurdu. Eyni zamanda böyük maddi sıxıntılar yaşayırdıq. Məhz ona görə də məhkəməyə müraciət etmək imkanımız olmadı. Ancaq bu cür qanunsuz tikili və ya otağımızın birinin sökülmüş olması bizim pay hüquqmuzun olmağına təsir edəcək səbəb deyil.

Cənab Prezident!

Müraciətimin ilk cümləsində qeyd etdiyim kimi, sabiq deputat Əsabil Qasımovun qardaşı Vüqar Qasımova məxsus "Vialon" MMC tikinti şirkəti bizi haqq və hüquqlarımızdan məhrum etməyə çalışır. Mərhum babamdan miras qalmış evin ərazisinin onların layihə planına düşdüyünü öyrəndim. Mən də öz növbəmdə dekabr ayında sözügedən şirkətin nümayəndəliyinə yaxınlaşaraq, lazımi sənədləri (çıxarış, texniki pasport) təqdim etdim. "Vialon" MMC-nin nümayəndəsi əvvəlcə bizimlə qanuni alqı-satqı edəcəklərini bildirdi, daha sonra isə müxtəlif bəhanələr gətirməyə başladılar. Mən öz iradımı dilə gətirərək "Ölkə başçısına və aidiyyəti orqanlara sizdən şikayət edəcəyəm", - dedim. Mənə "Mən qanuni çıxarışı saymıram, imkan edib otağı tikərdin. Sən istəsən də, istəməsən də, digər payçılarla razılaşaraq məqsədimizə nail olacağıq, kimə şikayət edə bilirsənsə, et, heç kimdən qorxan yerimiz yoxdur. Onsuz da bizə məğlub olacaqsan", - dedilər.

Bundan sonra tez-tez gedib evimizin hansı vəziyyətdə olduğunu nəzarətdə saxlayırdım. Mart ayında evin digər otağının da dağıdıldığını və dağıntıların isə təmizlənmiş olduğunu gördüm. Söküntü prosesinin kim(lər) tərəfindən həyata keçirildiyini bilmirəm. Araşdırılması üçün sahə müvəkkilinə müraciət etdim. Çünki Azərbaycan Respublikasının Konstitusiyasının 29-cu maddəsinə əsasən, hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Beləliklə, bəzi yuxarı instansiyalara şikayətlər ünvanlamağa başladım. Hətta Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovun da qəbulunda oldum. O, mənə köməklik göstərilməsi üçün rayon İcra Hakimiyyətinin məsul şəxslərinə göstəriş verdi. Şübhəsiz ki, bunun da heç bir faydası olmadı.

Hazırda çarəsiz durumdayam. Bununla yanaşı, dövlətimin ədalətinə və haqqı bərqərar edəcəyinə inanıram. Hansı ki, bir tərəfdə mənim kimi məzlum, kimsəsiz, haqq səsi boğulmağa çalışılan sadə vətəndaş, digər tərəfdə isə sabiq deputat və onun şirkət (lər) sahibi olan qardaşı dayanıb.

Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsində dövləti ali məqsədi, 25-ci maddəsində bərabərlik hüququ anlayışı var. Bu və digər qanunlarımızı rəhbər tutaraq Sizdən çox xahiş edirəm, "Vialon" MMC tikinti şirkətinin özbaşınalıqlarına son qoyasınız, mənim haqqımın bərpa edilməsi və təhlükəsizliyimin təmin edilməsi üçün tapşırıq verəsiniz. Ümidvaram ki, Sizin sayənizdə ədalət öz yerini tapacaqdır".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzunu araşdıracağıq. Qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.**



AZƏRBAYCAN RESPUBLİKASI
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA
DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ
Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən

ÇIXARIŞ

Seriya RX

№ 1034382

| | |
|---|---|
| Hüququ rəsmiləşdirilən şəxs | Əliyeva Natiqə Məmmədağa qızı |
| Daşınmaz əmlakın növü | Fərdi yaşayış evi |
| Daşınmaz əmlakın ünvanı (olduğu yer) | Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, dalan 2, ev 2 |
| Daşınmaz əmlakın mülkiyyət növü | Xüsusi |
| Daşınmaz əmlakın üzərində hüququn növü | Mülkiyyət |
| Daşınmaz əmlakın ümumi sahəsi (kvadratmetrlə) | 122.2 |
| Torpaq sahəsinin mülkiyyət növü | Dövlət |
| Torpaq sahəsi üzərində hüququn növü | İstifadə |
| Torpaq sahəsinin kateqoriyası (məqsədli təyinatı) | Yaşayış məntəqələrinin torpaqları |
| Torpaq sahəsinin (ölçüsü, hektarla) | 0.01604 |
| Daşınmaz əmlakın reyestr nömrəsi | 008011000817-10301 |

Hüquq sahibləri

| Sıra № | Hüquq sahibinin adı | Payı | Qeydiyyat nömrəsi | Qeydiyyat tarixi |
|---|---|---|---|---|
| 1 | İlyasova Vəfa Bəkir qızı | 1/6 hissə | 110612550 | 14.06.2006 |
| 2 | Feyzullayeva Nübar Əsəd qızı | 2 otaq 7.1kv.m. və 12.4kv.m., k/s 10.6kv.m. | 1109052038 | 04.09.2009 |
| 3 | Bədəl-zadə Nüşabə Əlişah qızı | 2/6 hissədən qalan hissə | 1112084686 | 04.10.2012 |
| 4 | Quliyev Muxtər İbrahim oğlu | 1/6 hissə | 1114114871 | 24.12.2014 |
| 5 | Əliyeva Natiqə Məmmədağa qızı | 2/6 hissə | 1117018505 | 15.03.2017 |

Daşınmaz əmlakın dövlət reyestrində 8 nömrəli reyestr kitabının 1000 nömrəli vərəqində qeydiyyata alınmışdır.

...azi İdarəsinin rəisi — Ş.Şahvəladov
...ydiyyat icraçısı — R.Mirzəyev



"Mərhum babamdan miras qalmış evin ərazisinin onların layihə planına düşdüyünü öyrəndim. Mən də öz növbəmdə dekabr ayında sözügedən şirkətin nümayəndəliyinə yaxınlaşaraq, lazımi sənədləri (çıxarış, texniki pasport) təqdim etdim. "Vialon" MMC-nin nümayəndəsi əvvəlcə bizimlə qanuni alqı-satqı edəcəklərini bildirdi, daha sonra isə müxtəlif bəhanələr gətirməyə başladılar..."



# Ev tikmək adı ilə 12 min manatını aldı, amma...

## Dələduzluğa məruz qaldığını iddia edən Sabirabad sakini illərdir pulunu ala bilmir

**Sabirabad rayonu, Məmişlər kənd sakini Teymurov İmran Ələkbər oğlu tərəfindən "Hürriyyət" qazetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, Bakı şəhər sakini Abduləzimov Elnur Məmməd oğlu onun qızını aldadaraq, 12 000 manat pulunu mənimsəyib:**







"Mən, Teymurov İmran Ələkbər oğlu, yazaraq sizə bildirirəm ki, qızım Quliyeva Zülalə İmran qızından Bakı şəhəri, Sabunçu rayonunda qeydiyyatda olan Abduləzimov Elnur Məmməd oğlu 26 iyul 2016-cı ildə ev tikmək məqsədilə 12 000 AZN alaraq, müqavilə bağlamışdır. O, sonradan qızımın etibarından sui-istifadə edərək, həmin vəsaiti əlavə olaraq notarial qaydada borc kimi qeyd etmişdir.

Mən bu məsələ ilə əlaqədar 23.09.2016-cı il tarixdə Baş prokuror Zakir Qaralovun qəbulunda oldum. Mənə bildirdi ki, rəsmi olaraq məhkəməyə müraciət et.

2016-cı ilin oktyabr ayından Sabunçu Rayon Məhkəməsi tərəfindən vəsaitin geri qaytarılması haqqında qərar çıxarılmasına və mənim müvafiq illər ərzində müraciətlərimə baxmayaraq, hal-hazırda Ədliyyə Nazirliyinin İcra Baş İdarəsi məlumatları nazirliyin İstintaq Baş idarəsinə göndərmir. Bu o səbəbdəndir ki, Abduləzimov Elnur Məmməd oğlunu yüksək vəzifəli şəxslər və ya onların adamları müdafiə edir.

Bu adamın Bakı şəhərində onlarla cinayət işi var. Lakin onun barəsində heç bir tədbir görülmür.

Qızımın övladı xəstədir, hal-hazırda Xırdalan şəhərində kirayədə qalır. Uşağı həkimə vaxtında aparıb-gətirmək üçün kirayədə qalmağa məcburdur. Şikayət etmədiyimiz rəsmi qurum qalmayıb. Sizdən xahiş edirik, övladımın uşağının xəstə olduğunu nəzrə alıb, onun pulunu qaytarılmasında bizə köməklik göstərəsiniz.

Sizin qəzet vasitəsilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə də müraciət edirəm. Xahiş edirəm ki, bizim şikayətə baxılması üçün müvafiq qurumlara tapşırıq verəsiniz".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları gedən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Ermənilər Heydər Əliyevə qarşı da təxribat törətmişdi...

## Vahid Əhmədov: "Qorbaçov Heydər Əliyevi vurmaq üçün daim bəhanə axtarırdı..."



"Əgər SSRİ-nin rəhbərliyinə Qorbaçov deyil, Heydər Əliyev gəlsəydi, SSRİ dağılmayacaqdı"

Millət vəkili Vahid Əhmədov Lent.az-a müsahibəsində mərhum dövlət başçısı Heydər Əliyevlə bağlı xatirələrin bölüşüb. "Hürriyyət" həmin müsahibəni oxucularına təqdim edir:

***- Vahid müəllim, Heydər Əliyevlə tanışlığınız necə başlayıb?***

- Rəhmətlik Heydər Əliyevlə mənim tanışlığım 1983-cü ildə başlayıb. Bakı Dəzgahqayırma İstehsalat Birliyində baş mühəndis işləyirdim. Aktiv idim, plenumlarda iştirak edirdim. Bir müddət sonra "Bakı fəhləsi" zavoduna rəhbərlik etdi. Bu zavodun əvvəlki direktoru həbs olunmuşdu. Gecə-gündüz dincəlmədən işləyib onun etimadını doğrultmağa çalışdım. Az sonra Heydər Əliyev Moskvaya vəzifəyə getdi. 1986-cı ildə H.Əliyev SSRİ Ali Sovetinin deputatlığına namizədliyini irəli sürmüşdü. Özü də namizədliyini "Bakı fəhləsi" zavodundan vermişdi. Həmin vaxtlarda zavodda xeyli sayda erməni var idi. Seçki zamanı təxribat etdilər. Zavodda boya sexini yandırdılar, qaynaq zamanı qığılcım boya çənlərinə düşmüş, partlayış olmuşdu. Bunu Heydər Əliyevə məruzə eləmişdilər. Özü gəldi, baxdı. Həmin anların lent yazısı da var. 3 saat birlikdə olduq. Gəzdi, hər şeylə maraqlanırdı, dəqiqliyi ilə bilirdi. Axırda dedi ki, kişinin başına iş gələr. Gedəndə belə bir tapşırıq verdi ki, Vahiddən muğayat olun, o, bizə lazımdır. Ümumiyyətlə, Heydər Əliyevin mənə münasibəti həmişə yaxşı olub.

SSRİ-də hakimiyyətə Qorbaçov gələndən sonra Heydər Əliyevə münasibəti yaxşı olmadı. Bilirdi ki, Heydər Əliyev güclü rəqibdir. Bir ara Heydər Əliyevin SSRİ rəhbəri seçilməsi məsələsi də yaranmışdı. Bir şeyi əminliklə deyə bilərəm, əgər SSRİ-nin rəhbərliyinə Qorbaçov deyil, Heydər Əliyev gəlsəydi, SSRİ dağılmayacaqdı. O buna imkan verməzdi. Müxtəlif islahatlar keçirərək, Çin kimi yeni bir format tapardı, amma dövləti dağılmağa qoymazdı. Qorbaçov Heydər Əliyevi vurmaq üçün daim bəhanə axtarırdı. Gözü götürmürdü. Biz də onu qorumaq üçün əlimizdən gələni etməyə çalışırdıq.

Bir hadisəni yada salmaq istəyirəm. Qorbaçov Tümenə səfər eləmişdi. O zaman neftmədən avadanlığının 75 faizini "Bakı fəhləsi" zavodu istehsal edirdi. Mancanaq adlı dəzgah vardı ki, onu Azərbaycan istehsal edirdi. Qorbaçov orda soruşub ki, neft istehsalı niyə azalıb? Ona cavab vermişdilər ki, Azərbaycandan gələn mancanaqların reduktorları xarabdır, məhsulları zaydır. Qorbaçova da Heydər Əliyevlə bağlı bəhanə lazım idi. O zaman II katib olan Vasili Konovalovla məni Moskvaya çağırdılar və mən orada deyilənlərin doğru olmadığını, yanlış məlumat verildiyini söylədim. Bir az hay-küy saldılar. Bu hadisədən sonra məni "Keşlə" maşınqayırma zavoduna keçirdilər, bu zavod yalnız reduktorlar istehsal edirdi. Heydər Əliyevin adına görə orada gecə-gündüz işləməyə başladıq. Bu oyun Heydər Əliyevin əleyhinə qurulmuşdu. Sonda məhsullarımızı rus hərbçiləri qəbul etdi. Keyfiyyətindən əmin oldular. Həmin məhsulları bir Bakı istehsal edirdi, bir də Rumınıya ilə ABŞ. Bu rəqabətin öhdəsindən gəlirdik. Biz Heydər Əliyevi bacardığımız qədər qorumağa çalışırdıq, o da bizi...

***- Onun Azərbaycana qayıdışı ölkəmizin ən ağır günlərinə təsadüf etdi. SSRİ-nin rəhbər şəxslərindən biri olmuş adam ölkənin müstəqil olacağına inanırdı?***

- 1991-ci il martın 7-si idi. SSRİ-nin saxlanılması ilə əlaqədar referendum keçirilirdi. Ali Sovetdə müzakirə edilməliydi. O zaman Demokratik Blok var idi, müstəqillik əldə edilməsini tələb edirdi, biz də onları dəstəkləyirdik. Mən o zaman zavod direktoru, büro üzvü idim. Tərəddüd edirdim ki, birdən SSRİ dağılmaz. Bütün nəslimizi məhv edərdilər. Amma SSRİ-nin dağılmasının lehinə səs verən 43 deputatdan biri də mən oldum. Heydər Əliyev ürəkləndirdi. Mənə dedi ki, narahat olma, daha SSRİ yoxdur.

> - 1991-ci il martın 7-si idi. SSRİ-nin saxlanılması ilə əlaqədar referendum keçirilirdi. Ali Sovetdə müzakirə edilməliydi. O zaman Demokratik Blok var idi, müstəqillik əldə edilməsini tələb edirdi, biz də onları dəstəkləyirdik. Mən o zaman zavod direktoru, büro üzvü idim. Tərəddüd edirdim ki, birdən SSRİ dağılmaz. Bütün nəslimizi məhv edərdilər. Amma SSRİ-nin dağılmasının lehinə səs verən 43 deputatdan biri də mən oldum...

***- Heydər Əliyev Naxçıvanda olanda münasibətləriniz nə səviyyədə idi?***

- Çox çətin, ağır və gərgin dövr idi. Dövlətin xəzinəsi boş idi, ölkədə taxıl problemi vardı. O zaman biz Türkiyə və Rusiyadan vəsait almaqla bu problemi həll edə bilərdik. Elçibəy, mən, Pənah Hüseynov Türkiyəyə getdik. Süleyman Dəmirəl 250 milyon kredit ayırdı. Batumidən keçməklə ölkəyə taxıl gətizdirdik. Amma Batumidən taxılın hamısı Azərbaycana gəlib çatmırdı. O zaman Heydər Əliyev Naxçıvanda idi və xahiş etdim ki, taxılı əvvəl onlar götürsün, çünki bölgə blokada şəraitində idi. İran vasitəsilə Naxçıvana yanacaq daşınması üçün 70-ə qədər maşın ayırmışdım. Bunları Əbülfəz Elçibəy də bilirdi. Biz onunla tez - tez zəngləşirdim, müzakirələr aparırdıq. Mən Baş nazirin müavini olanda Heydər Əliyev artıq Bakıdaydı, Prezident səlahiyyətlərini yerinə yetirirdi.

***- Onun yaddaşına bənzər yaddaş bildiyimə görə, yalnız İngiltərənin Baş naziri Çörçildə olub. Hər kəslə etdiyi söhbəti ən xırda detalına qədər xatırlayırmış.***

- Bəli, Heydər Əliyev də elə idi. Unutmurdu. Ən xoşuma gələn cəhəti kadr siyasəti idi. Kadr siyasətində çox ciddi idi. Sadə insanların arasından, zavoddan, fabrikdən, kənd təsərrüfatından hörməti olan adamları seçirdi. Müsbət keyfiyyətləri kifayət qədər çox idi. Yadıma gəlir, bir dəfə söhbət zamanı mənə demişdi ki, bir sənədin 5 il sonrakı perspektivini görməsəm, ona heç bir zaman qol çəkmərəm. İclaslara heç zaman hazırlıqsız gəlməzdi. Mövzu ilə bağlı hərtərəfli məlumat toplayırdı. Mən baxıram, İlham Əliyev də elədir. Qara bir kitabçası var idi. İstənilən suala orda hazır cavab olardı.

Hər şeydən xəbəri olurdu. Ola bilməzdi ki, hansısa rayonda nəsə olaydı, onun xəbəri olmayaydı. Məlumatlı insan idi. Dostla dost idi, düşmənlə düşmən. Gənc kadrlara yer və dəstək verirdi. İnanmıram ki, bundan sonrakı 100 ildə Heydər Əliyev kimi şəxsiyyət yetişsin. Prezident seçiləndən sonra ən böyük addım olaraq torpaq islahatını həyata keçirdi. Bazar iqtisadiyyatının rıçaqlarını çox gözəl bilirdi. O dəhlizdən keçəndə arxasından pıçıldaşırdılar, kişi gəldi, kişi getdi deyirdilər. Zəhmi vardı. İndi elə kişilər az qalıb.

Heydər Əliyev soyuqqanlı siyasətçi idi. Özü demiş, 5 il sonranı görürdü. Heydər Əliyev hakimiyyətə silahsız gəlib. Halbuki öncə Heydər Əliyevi Bakıya buraxmaq istəmirdilər, hətta qardaşı öləndə dəfninə buraxmamışdılar. O zamankı hakimiyyətin səhvi o olmuşdu ki, bu adamdan istifadə etməyi bacarmadı. Dəvət eləsələr, kömək edəcəkdi. O Heydər Əliyev idi. Belə insanlar hər gün yetişmir.

***- Heydər Əliyevlə işləmək çətin idi, ya asan?***

- Dinləməyi bacarırdı, nə danışdığını gözəl bilirdi. Bir dəfə taxılla bağlı problemimiz var idi. Dedi Moskvaya gedib həll etmək lazımdır. Getdik, həll etdik, gəldik. Mən dedim bəlkə Prezident Yeltsinə zəng vurub təşəkkür edək? Dedi "yox". Çox prinsipial adam idi. Nəhəng siyasətçi idi. Böyük dövlətçilik təcrübəsi vardı. Bölgə dünya dövlətləri üçün çox maraqlıdır. Hamı Azərbaycandan yararlanmağa çalışırdı. Ona görə də heç də asan deyildi.